Xalqın qəzeti!

# Xalq qəzeti

№ 117 (30233) 4 iyun 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Türkiyə – Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır.

# Türkiyənin Ədalət və İnkişafa sədaqət günü

## Ankaranın Esenboğa Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimində iştirak etmək üçün iyunun 3-də Ankaraya işgüzar səfərə gəlib.**

Ankara şəhərinin Esenboğa Hava Limanında dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.

## Prezident Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*



**İyunun 3-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## 30 il qabaq iyunun 4-də...



Səhifə ⇨ 5

## Zəngəzur yolunda yaşıl işıq görünür



Səhifə ⇨ 4

## Rusiyanın ekspert mühiti Bakı-İrəvan tənzimlənməsinin Qərb formatına qarşı

**Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə Qərb formatında aktivlik hiss olunmaqdadır. Aktivliyi şərtləndirən bir sıra səbəblər var ki, onlardan ən önəmlisinin Rusiya ilə rəqabət olduğu bildirilir. Bu rəqabətin başlıca hədəfi isə Moskvanı Cənubi Qafqaz regionundan çıxarmaqdır.**

Bəs, hazırkı mürəkkəb geosiyasi şəraitdə Qərbin uğur qazanması nə dərəcədə realdır? Kreml yaşadığımız regionun müstəvisində özünə qarşı diplomatik təzyiqlərə sinə gərə biləcəkmi? Bu və buna bənzər suallar dünyanın ayrı-ayrı siyasi dairələrində müzakirə olunduğu kimi, Rusiyanın ekspert mühitində də geniş diskussiya predmetinə çevrilməkdədir. Mövcud kontekstdə isə Bakı-İrəvan normallaşmasının müxtəlif aspektləri gündəmə gəlir.

Digər tərəfdən, Qərb-Rusiya rəqabəti fonunda nəzərə çarpan başlıca məqam balanslı mövqe tutan və öz prinsiplərində ardıcıllıq gözləyən Azərbaycandan fərqli olaraq, Ermənistanın Qərb vasitəçiliyinə açıq maraq göstərməsidir. Ancaq niyəsə, rusiyalı siyasilər bundan danışmaq istəmirlər. Onların ötəri dilə gətirdikləri sözlərindən belə anlaşılır ki, ikinci birinin ağlını başından çıxarır. Heç kəs isə soruşmur ki, ağıl niyə başdan çıxmalıdır?

*(ardı 4-cü səhifədə)*

## Neft həftəsi ölkəmizin enerji potensialının nümayişinə çevrilib



**Bakı Enerji Forumunda Xəzər regionunda kəşfiyyat və hasilat imkanları, təhlükəsizliyin gücləndirilməsi ilə dayanıqlı inkişafın təmin edilməsi, uğurlu enerji keçidində insan kapitalının rolu, enerji sektorunda texnoloji innovasiyalar, yaşıl enerji və xalis sıfır emissiya mövzuları geniş müzakirə olunub.**

Forumun ikinci günündə SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış edərək ulu öndər Heydər Əliyevin neft-qaz sənayesinin inkişafındakı xidmətlərindən ətraflı danışıb. X.Yusifzadə dahi şəxsiyyət Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində ölkəmizin neft-qaz sənayesinə xüsusi qayğı göstərdiyini, bununla bağlı qarşıda duran məsələlərin həllinə həssaslıqla yanaşdığını bildirib.

*(ardı 7-ci səhifədə)*

## Cənub Qaz Dəhlizi Azərbaycandan Avropaya enerji körpüsüdür




Səhifə ⇨ 7

## Uğur formulu: güclü lider – qalib xalq



Səhifə ⇨ 8

## Alen Simonyan zamin axtarışında

Səhifə ⇨ 6

## Rusiya-Ukrayna müharibəsi: mövqe döyüşləri gedir



Səhifə ⇨ 10

## İrəvandan Moskvaya növbəti “saygısızlıq”

Səhifə ⇨ 10

# Prezident Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi







*(əvvəli 1-ci səhifədə)*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı, digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamladılar.

Mərasimdə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün, şəhidlərin və fevralın 6-da baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Türkiyə Respublikasının Dövlət Himni – "İstiqlal Marşı" səsləndirildi.

Rəcəb Tayyib Ərdoğan çıxış edərək yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirdi. Mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türkiyə yüzilliyi"nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını qeyd etdi. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı bu gün elan olunacaq yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını bildirərək dedi: "Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".

Türkiyə demokratiyasının bütün azadlıqların əksini tapdığı, mütərəqqi və əhatəli Konstitusiya ilə gücləndiriləcəyini qeyd edən Rəcəb Tayyib Ərdoğan növbəti beş il ərzində Türkiyə Respublikasının şanını və şərəfini qorumaq, etibarını artırmaq və adını dünyada daha da ucaltmaq üçün var gücü ilə çalışacaqlarını vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevə, digər dövlət, hökumət başçılarına və qonaqlara bir daha minnətdarlığını bildirdi.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, dualar edildi.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğan prezident seçkilərinin mayın 28-də keçirilmiş ikinci turunda 52,18 faiz səs toplayaraq qalib gəlib.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından mərasim iştirakçılarının şərəfinə şam yeməyi verilib

### *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*







**İyunun 3-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından mərasim iştirakçılarının şərəfinə şam yeməyi verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

## Ölkəmiz beynəlxalq idman təşkilatları ilə uğurlu fəaliyyət göstərir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Tomas Baxı qəbul edib.**

Dövlətimizin başçısı Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Tomas Baxa Bakıda keçirilən taekvondo üzrə 26-cı dünya çempionatında iştirakına və dəstəyinə görə minnətdarlığını bildirdi, bunun əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyini dedi.

Tomas Bax paytaxtımızda keçirilən bu idman yarışında iştirak etməkdən məmnunluğunu ifadə etdi.

Söhbət zamanı çoxlu sayda ölkəni təmsil edən idmançıların iştirak etdikləri taekvondo üzrə 26-cı dünya çempionatının Azərbaycanda keçirilməsinin önəminə toxunuldu.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Olimpiya Komitəsinin uzun illər səmərəli əməkdaşlıq həyata keçirdiyi və ölkəmizin bu beynəlxalq qurumun fəal iştirakçısı olduğu qeyd edildi, Azərbaycanın beynəlxalq idman təşkilatları ilə uğurlu qarşılıqlı fəaliyyəti vurğulandı.

Söhbət zamanı ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıldı, Azərbaycanın dünya əhəmiyyətli çoxsaylı idman tədbirlərinin yüksək səviyyədə təşkil edildiyi məkana çevrildiyi bildirildi, paytaxtla yanaşı, regionlarda da müasir idman infrastrukturunun yaradıldığı qeyd olundu.

Tomas Bax 2015-ci ildə Bakıda keçirilən birinci Avropa Oyunlarını məmnunluqla xatırladaraq qeyd etdi ki, o, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi Oyunların açılış mərasiminin hələ də xoş təəssüratları altındadır.

Sonda Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti dövlətimizin başçısına Olimpiya Evi Mükafatını təqdim etdi. Mükafat dünyanın ən dayanıqlı binalarından biri olan Beynəlxalq Olimpiya Komitəsinin Lozannadakı yeni baş qərargahını əks etdirir. Göyərçin formasında, dam örtüyündə günəş panelləri olan bina Beynəlxalq Olimpiya Komitəsinin dayanıqlılığa və sülhə sadiqliyini tərənnüm edir.

***AZƏRTAC***

## İnsan Resursları və İdarəetmə Forumu



**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN İnnovativ İnkişaf Mərkəzinin (AİİM) təşkilatçılığı ilə Bakıda İnsan Resursları və İdarəetmə Forumu keçirilib. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və peşəkar idarəçilik yoluna həsr olunmuş tədbir Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) baş sponsorluğu ilə reallaşdırılıb.**

Forumun əsas məqsədi ən son inkişaf və yeniliklərə diqqət yetirmək, innovativ, işgüzar və səmərəli təcrübələri paylaşmaq, eləcə də peşəkar mühitdə ümumi mövzuları müzakirə etməkdir.

Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və videoçarx nümayiş etdirilib.

ASAN İnnovativ İnkişaf Mərkəzinin təqdimatından sonra tədbirin açılış sessiyasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev çıxış ediblər.

ASAN İnnovativ İnkişaf Mərkəzi ilə "Pozitum Konsultasiya, Təlim və Kouçinq Mərkəzi" arasında birgə təlimlərin keçirilməsinə dair əməkdaşlıq Memorandumu imzalanıb.

Forumda 10 xarici, 6 yerli idarəçi ekspertin iştirakı ilə "Liderlik vizyonu, innovativ inkişaf və strategiyanın icra edilməsi", "Kouçvari yeni nəsil idarəetmə, loyallıq və motivasiya" və "DATA mərkəzli rəqəmsal İR idarəetməsi, OKR" mövzularında panel müzakirələr təşkil olunub. Müzakirələrdə idarəetmənin ən son trendlərindən, müasir dövrün tələblərindən və inkişaf yönümlərindən danışılacaq, innovativ yanaşmalara və qlobal səriştələrə çağırışlar edilib.

Bütün iştirakçılara AİİM-in və Boğaziçi Universitetinin İnnovasiyalar Mərkəzinin birgə sertifikatı verilib.

Ümumilikdə forumda 300-dən çox müxtəlif dövlət və özəl müəssisəsində çalışan işgüzar şəxslər, insan resursları üzrə peşəkarlar, mütəxəssislər və idarəçilərdən ibarət 500-ə yaxın şəxs iştirak edib.

## “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2022-ci il dekabrın 14-də Bakı və Cakarta şəhərlərində imzalanmış “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İndoneziya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 3 iyun 2023-cü il**

## “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş”in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il aprelin 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İsrail Dövləti Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 3 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 176** **Bakı şəhəri, 1 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş “ASAN müraciət” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə***

“Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, “Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” 2018-ci il 14 mart tarixli 1885 nömrəli və “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511; 2022, № 12, maddə 1557) ilə təsdiq edilmiş “ASAN müraciət” informasiya sistemi haqqında Əsasnamə”nin 1.3-cü bəndində “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxsdir” sözləri “İnnovasiyalar Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətdir” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 177** **Bakı şəhəri, 1 iyun 2023-cü il**

***“Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 422 nömrəli Qərarının ləğv edilməsi haqqında***

“Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2144 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 422 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1887; 2018, № 5, maddə 1117, № 9, maddə 1931) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 178** **Bakı şəhəri, 2 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər”də dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 noyabr tarixli 1883 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464; 2007, № 8, maddə 852, № 12, maddə 1336; 2008, № 1, maddə 39; 2014, № 7, maddə 935; 2015, № 1, maddə 63, № 5, maddə 670; 2018, № 4, maddə 823; 2019, № 4, maddə 755) ilə təsdiq edilmiş “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər”in “Qeydlər”inin 5-ci hissəsində “və 9-cu (partlayıcı maddələrin və partlayıcı qurğuların istehsalı və satışı) bəndlərində” sözləri “hissələrində” sözü ilə, “xüsusi razılıq (lisenziya)” sözləri “lisenziya” sözü ilə, “3-cü bəndinə” sözləri “3-cü hissəsinin birinci abzasına” sözləri ilə əvəz edilsin və həmin hissəyə “səhmdar cəmiyyətləri tərəfindən” sözlərindən sonra “, əlavə Şərtlərin 9-cu (partlayıcı maddələrin və partlayıcı qurğuların istehsalı və satışı) hissəsində göstərilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi isə həmin Fərmanın 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq dövlət müəssisələri və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətləri, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə dövlət müəssisələrinin iştirak etdiyi birgə müəssisələr tərəfindən” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 179** **Bakı şəhəri, 2 iyun 2023-cü il**

***“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin aylıq vəzifə maaşlarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 oktyabr tarixli 319 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin aylıq vəzifə maaşlarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 oktyabr tarixli 319 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1186; 2022, № 3, maddə 262, № 5, maddə 578) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin işçilərinin aylıq vəzifə maaşları”nın 9-cu sətri ləğv edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar üzrə xidmət heyətinin aylıq vəzifə maaşları” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, dərc edilmir).

**3.** Bu Qərarın 2-ci hissəsi 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## YAP və Rus İcmasının Ulu öndərə həsr olunmuş konfransı




**Dünən Bakıda Yeni Azərbaycan Partiyası və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi” mövzusunda konfrans keçirilib.**

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü konfrans Heydər Əliyev irsinin öyrənilməsi, onun əbədiyaşar ideyalarının geniş ictimaiyyətə çatdırılması və gənc nəslə aşılanması baxımından mühüm əhəmiyyətə malikdir.

Tahir Budaqov deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan siyasəti ölkəmizə böyük nailiyyətlər qazandırmaqdadır. Xüsusilə də multikulturalizmin həm dövlət siyasəti olaraq müəyyənləşdirilməsi, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi müstəqillik yolunda inamlı irəliləyişini təmin edir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərliyi ilə multikulturalizmin, sivilizasiyalararası dialoqun, mədəniyyətlərin inteqrasiyası ideyasının təbliği və təşviqi istiqamətində ardıcıl işlərin görülməsi, mühüm layihələrin reallaşdırılması həm ölkəmizdə tolerantlıq mühitinin güclənməsinə, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə təkan verir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin bildirib ki, sabitliyin və inkişafın təmin edilməsi Heydər Əliyevin siyasətinin ən mühüm nailiyyətlərindəndir. M.Zabelin diqqətə çatdırıb ki, Heydər Əliyevin xeyir-duası ilə 1993-cü ilin mayında Azərbaycanda Rus İcması yaradılıb və bu gün Cənubi Qafqazda ən böyük - 120 min nəfərdən çox üzvü olan icma 30 illik yubileyini qeyd edir.

Mədəniyyət naziri Adil Kərimli, Rusiya Xarici İşlər Nazirliyinin Həmvətənlərlə İşlər üzrə Departamentinin direktoru Aleksandr Nurizadə, Həştərxan vilayətinin mədəniyyət və turizm naziri Olqa Prokofyeva, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, Arximandrit Aleksiy Nikonorov çıxış edərək Ulu öndərin əsaslarını yaratdığı milli siyasətin dilindən, dinindən, ictimai mənşəyindən asılı olmayayaraq hər bir xalqın hərtərəfli inkişafına münbit şərait yaratdığını vurğuladılar. Natiqlər bildirdilər ki, bu siyasətə uyğun olaraq Azərbaycanda müxtəlif mədəniyyətə və konfessiyaya malik insanlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu ölkənin qonşu xalqlarla və dövlətlərlə münasibətləri də dostluq və əməkdaşlıq prinsiplərinə əsaslanır.

## XİN: Zəruri olmayanda İrana səfər etməyin




**Azərbaycan Xarici İşlər Nazirliyi İrana səfər edən və hazırda orada olan vətəndaşlarımıza xəbərdarlıq edib. Bu barədə XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, bu ilin yanvar ayında Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktı və bunun nəticəsində İrandakı məhdud diplomatik təmsilçiliyimiz nəzərə alınmaqla, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə İran İslam Respublikasına səfər etməməyi, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələri kəskin şəkildə tövsiyə olunur.

Hazırda İran İslam Respublikasında olan Azərbaycan Respublikası vətəndaşlarına mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri tələb olunur.

İran İslam Respublikasındakı vətəndaşlarımızın konsulluq və digər müraciətləri üçün Azərbaycan Respublikasının Təbrizdəki baş konsulluğu ilə aşağıdakı vasitələrlə əlaqə saxlamaları xahiş olunur:

ÜNVAN: Təbriz, Vəliəsr, Arif küçəsi 9
TEL: (+98413) 333 48 03
FAKS: (+98413) 331 53 80
E-MAIL: tabriz@mission.mfa.gov.az
WEBSITE: tabriz.mfa.gov.az

## Şuşada kütləvi məzarlıq aşkarlanıb

**Azərbaycanın işğaldan azad edilən Şuşa şəhərində kütləvi məzarlıq aşkar edilib.**



Kütləvi məzarlıq Şuşa həbsxanasının ərazisində tapılıb. Bu, bir daha onu göstərir ki, Şuşa həbsxanasında azərbaycanlılar qanunsuz saxlanılıb və onlara ağır işgəncələr verilib, orada amansız zorakılıqlar törədilib. Aşkarlanan bu məzarlıq da həmin hadisələrin bariz nümunəsidir.

***“Xalq qəzeti”***

## Ombudsman Şuşa həbsxanasında törədilmiş kütləvi qətliamı ittiham edir

**Azərbaycan Respublikasının insan hüquqlari üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Şuşa həbsxanası ərazisində kütləvi məzarlığın aşkarlanmasına münasibət bildirib.**

Təəssüflə vurğulanıb ki, Ermənistanın beynəlxalq humanitar hüququn tələblərini pozmaqla törətdiyi cinayətlərə dair faktların sayı bununla məhdudlaşmır. Ermənistan tərəfi bu məsələdə də öz məsuliyyətindən boyun qaçıraraq kütləvi dəfn yerləri barədə məlumatların təqdim edilməsindən yayınıb.

“Azərbaycan ombudsmanı olaraq, bir daha dünya ictimaiyyətini beynəlxalq hüquq normalarının, insan hüquq və azadlıqlarının kobudcasına pozulmasını sübut edən bu kimi hallarla bağlı Ermənistana qarşı zəruri tədbirlər görməyə və itkin düşmüş soydaşlarımızın taleyi barədə məlumatların əldə edilməsi ilə əlaqədar dəstək verməyə çağırıram”, – deyə S.Əliyeva qeyd edib.

***“Xalq qəzeti”***

## Mövqelərimiz atəşə tutulub

**İyunun 3-ü saat 00:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bundan başqa, iyunun 2-si axşam saat 20:40-dan iyunun 3-ü saat 00:30-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Ordumuzun Xocalı, Şuşa, Xocavənd və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

# Rusiyanın ekspert mühiti Bakı-İrəvan tənzimlənməsinin Qərb formatına qarşı

## Gah Qərbi qınayırlar, gah da Moskvanı…
## Ermənistanın anti-Rusiya təmayülü isə yada düşmür

*(əvvəli 1-ci səhifədə)*

Rusiyalı politoloqlar, onu da soruşmurlar ki, Kreml 44 günlük müharibəyə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın ona verdiyi üstünlüyü hansı səbəbdən qoruya bilmədi? İndi, necə deyərlər, iki daş arasında qalıblar. Bilmirlər, Qərbi dağıdıcılıqda günahlandırsınlar, yoxsa Rusiyanı passivlikdə. Hərçənd, qeyri-ixtiyari birincinin fəallığını etiraf edənlər də var.

Müxtəlif səviyyələrdə aparılan danışıqların və görüşlərin intensivliyini, xüsusən, Azərbaycanın və Ermənistanın Xarici işlər nazirlərinin iyunun 12-də ABŞ-da yenidən görüşəcəyini nəzərə alsaq, Qərbin kifayət qədər tutarlı addımlar atdığını və gərginliyi azaltmaq üçün səylər göstərdiyini söyləyə bilərik. Belə bir fikri rusiyalı politoloq Andrey Areşev səsləndirib. Amma politoloq əmindir ki, bəzi erməni siyasətçilərinin ümidlərinə baxmayaraq, Qərbin vasitəçiliyi İrəvana heç bir üstünlük vermir, münaqişə tərəfləri arasında yalnız bərabər məsafənin qorunmasına əsaslanır. Areşev də məlum tezisi təkrarlayır: Qərbin missiyası regionda Rusiyanı sarsıtmaqdır. Moskva isə politoloqun fikrincə, postsovet məkanında yaranan qeyri-müəyyən vəziyyəti nəzərə alaraq, siyasi və diplomatik müstəvidə əlindən gələni edir ki, tarix boyu qazandıqlarını itirməsin.

Azərbaycan və Ermənistan liderlərinin iyunun 1-də Kişineuda Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi, Almaniya Kansleri Olaf Şoltsun və Fransa Prezidenti Emmanuel Makronun iştirakı ilə keçirilmiş qeyri-rəsmi görüşünə fokuslanmış rusiyalı analitiklər hesab edirlər ki, Moldovadakı təmasın nəticələrinə dair konkret məlumatlar hələ də kifayət deyil. “Görüş, mühakimə edə bildiyimiz qədər qeyri-rəsmi olub və təxminən 1,5 saat davam edib. Müəyyən mərhələdə Almaniya və Fransa liderləri də ona qoşulublar. Praktiki baxımdan əsas məqam növbəti görüşün dəqiq tarixinin – iyulun 21-də Brüsseldə müəyyənləşdirilməsidir”, – deyən Areşevin qənaətinə görə isə dəqiq tarix danışıqlar prosesinin intensiv xarakter daşımasından xəbər verir. Areşev, həmçinin, vaxtaşırı maneələrlə üzləşməsinə baxmayaraq, Bakı ilə İrəvan arasındakı sülh müqaviləsinin hazırlanması işinin irəliləməkdə olduğu düşüncəsindədir.

Məlumdur ki, bir neçə gün əvvəl Moskvada Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirlərinin müavinlərinin görüşü keçirilib. Areşev bildirib ki, görüşdə fundamental məqamlardan, demək olar, söz açılmayıb. “Sülh müqaviləsi məsələsi Qərb platformasına daşınıb. Rusiyada daha çox praktiki məsələlər, xüsusən, kommunikasiyaların açılması müzakirə olunur. Bunu səlahiyyətlilərin ranqı da təsdiqləməkdədir. Əslində isə görüş iqtisadiyyatdan daha çox, siyasətlə bağlı olan məsələdir. Digər tərəfdən, nizamlanmanın mümkün iqtisadi və siyasi aspektləri də Brüssel platformasında müzakirə oluna bilər. Çünki bu məsələlər bir-biri ilə sıx bağlıdır. Rusiya ilə Qərb arasında müşahidə olunan fikir ayrılıqlarını nəzərə alsaq, müxtəlif baxışların necə uyğunlaşacağını söyləmək hələ də çətindir. Gözlənilməzliyin yaşanmaması üçün Moskvanın prosesləri mümkün qədər yaxından izləməsi vacibdir”, – deyə politoloq vurğulayıb.

Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirlərinin müavinlərinin Moskvadakı təmasından söz düşmüşkən, həmin görüşdə nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı razılığın əldə olunmasında irəliləyiş müşahidə olunur. Bunu üçtərəfli işçi qrupunun iyunun ilk günlərindəki fəaliyyətinin yekunları ilə bağlı söz açan Rusiyanın baş nazirinin müavini Aleksey Overçuk bildirib. “Görüş konstruktiv atmosferdə keçdi. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının bərpası üsullarının əlaqələndirilməsi sahəsində mühüm irəliləyiş məmnunluqla qeyd olundu”, – deyən Overçukun açıqlamasındakı konkret məqam budur ki, üçtərəfli işçi qrup Yerasx-Culfa-Meğri-Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası üçün konkret addımlar barədə ümumi razılığa gəlib.



Qeyd edək ki, Ermənistanın ictimai rəyində də Qərb formatının ölkə üçün ciddi nəticələr doğurmayacağı qənaətində olanlar var. Mövcud zəmində erməni mediasının danışıqlar müstəvisində anti-Qərb köklənişi hiss olunmaqdadır. Nəzərə alaq ki, erməni mediası daha çox Rusiya təmayüllüdür və ölkənin baş naziri Nikol Paşinyanın siyasətini gözdən salmaqla, cəmiyyətdə Nikolun satqın və xain obrazını formalaşdırmaqla, böyük planda isə xalqın iqtidarı devirmək əzmini körükləməklə məşğuldur. Deməli, onun rusiyalı politoloqların fikirlərinə yer verməsinin tendensiya halını alması anlaşılandır. Erməni jurnalistlərin düşüncələrinə yer verdiyi politoloqlardan biri də Rusiyadakı Siyasi İnformasiya Mərkəzinin direktoru Aleksey Muxindir.

Muxin, Areşevdən fərqli olaraq, Kişineu sammitinin tam səmərəsizliyini iddia edir. Onun sözlərinə görə, görüşdə Ermənistanla Azərbaycan arasında heç bir ziddiyyətli və mürəkkəb münasibət həllini tapmadı, yalnız anti-Rusiya görüntüsü nümayişə qoyuldu. “Əslində, Qərb formatı yoxdur, yalnız prosesə girmək cəhdi var və Qərb ölkələrinin Ermənistana və Azərbaycana təklif edə biləcəyi həll yolları, heç bir şəkildə, təmin oluna bilməz. Bu həllər siyasi baxımdan əhəmiyyətsizdir”, – deyən politoloqun fikrincə, Cənubi Qafqazdakı vəziyyətin tənzimlənməsi üzrə aydın iş alqoritmi var. Bu, Rusiya–Azərbaycan–Ermənistan oxudur. Mövcud durumda Rusiya formatı işlək, “Ermənistan–Azərbaycan–Avropa İttifaqı” və “Ermənistan–Azərbaycan–ABŞ” formatları isə passivdir. Məqsəd yalnız Rusiyanın təcridi, onu regiondan sıxışdırıb çıxarmaq və faktiki həll olmadan, münaqişənin həllini imitasiya edəcək müəyyən sayda sənədlər imzalamaqdır.

Ancaq görünən budur ki, Muxinin imitasiya məntiqindən daha çox istifadə edən Vaşinqton və Brüssel deyil, məhz Moskvanın özüdür. Ancaq onu da nəzərə alaq ki, Ermənistan Kremlin təşəbbüsü ilə indiyədək imzalanmış sənədlərə məhəl qoymur. İrəvan üçün üçtərəfli bəyanatlar məntiqi yalnız anti-Azərbaycan ritorikası baxımından əlverişlidir. Yəni, Paşinyan nə zaman reallıqlardan uzaqlaşmaq, mətləbdən yayınmaq istəyirsə, o zaman həmin bəyanatları yada salır.

Başqa bir məqam da var ki, hazırda Kremlin tutarlı nizamlama mexanizmi və bununla əlaqədar real təklifi yoxdur. Maraqlıdır ki, politoloq Muxin bu məqama diqqət yetirməkdədir. O açıq tekstlə deyir ki, hazırda Rusiya başqa alternativ təklif etmir. “Belə təəssürat yaranır ki, Rusiya “Artsax”ın statusunun müəyyənləşdirilməsinin gələcəyə saxlanılması variantından imtina edib və əslində Qərb variantına oxşar variant irəli sürür”, – deyən rusiyalı ekspert bunu Moskvanın öz oyununun mövcudluğu ilə əsaslandırır.

Ancaq Muxin şikayətindən də qalmır. O, Rusiya rəhbərliyinin planlarına mütəxəssisləri cəlb etmədiyini bildirərək təəssüflənir: “Biz prosesləri təhlil edə, öz proqnozlarımızı verə bilərik, lakin təəssüflər olsun ki, onlar bəzən Rusiya rəhbərliyinin mövcud istiqamətdə gördüyü işlərlə uyğun gəlmir”.

*Ə.RÜSTƏMOV,*
*“Xalq qəzeti”*

# Zəngəzur yolunda yaşıl işıq görünür

## Sülh danışıqlarının indiki mərhələsində Moskva üstünlüyü ələ almağa çalışır

**Rusiya Baş nazirinin müavini Aleksey Overçukun Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin sədrliyi ilə keçirilən üçtərəfli İşçi Qrupunun iclasının yekunları barədə mətbuata açıqlaması nikbin notlara köklənib.**

Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2023-cü il mayın 25-də Moskvada keçirilən görüşdə əldə etdikləri razılaşmaların həyata keçirilməsi məqsədilə iyunun 2-də üçtərəfli işçi qrupunun 12-ci iclası keçirilib.



Rusiya paytaxtında baş tutmuş iclasda Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryan və Rusiyanın Baş nazirinin müavini Aleksey Overçuk iştirak edib.

A.Overçuk görüşün konstruktiv şəraitdə keçdiyini, Azərbaycan və Ermənistan arasında nəqliyyat əlaqələrinin bloklanmasının aradan qaldırılması üsullarının əlaqələndirilməsi sahəsində mühüm irəliləyişin əldə olunduğunu məmnunluqla qeyd edib. Onun sözlərinə görə, tərəflər arasında xüsusilə, Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası və təşkili üzrə konkret addımların atılması ilə bağlı ümumi anlaşma əldə olunub.

Belə pozitiv notlara söykənən açıqlamasının ardınca Rusiya baş nazirinin müavini danışıqların nəticələri barədə Azərbaycan, Ermənistan və Rusiyanın rəhbərlərinə məlumat veriləcəyini, tərəflərin üçtərəfli işçi qrupu çərçivəsində işi davam etdirmək barədə ümumi razılığa gəldiklərini söyləməyi də unutmayıb.



* * *

Öncə qısa xatırlatmaya ehtiyac var. 10 noyabr üçtərəfli Bəyanatının imzalanmasından sonra sülhə nailolma istiqamətində atılan ilk addım məhz üç ölkənin baş nazirlərinin müavinlərinin iştirakı ilə işçi qrupu formatında oldu. Başlanğıcda səmərəli işləyən bu işgüzar format özünü doğrultmuş təsiri bağışladı. Amma təəssüf ki, 2021-ci ilin mayından sonra işçi qrupunun fəaliyyətində durğunluq mərhələsi başladı. Bunun da əsas səbəbi Avropanın, daha sonra ABŞ-ın Cənubi Qafqazda sühyaratma missiyasına qoşulmaq, prosesdə vasitəçi kimi çıxış etmək təşəbbüsləri ilə bağlıdır. Əslində üç ölkənin baş nazirlərinin müavinləri səviyyəsində yaradılan qrupun fəaliyyətsizliyi, faktiki olaraq, 10 noyabr Bəyanatının digər bəndlərinin də reallaşmasının qarşısını kəsən amilə çevrilmişdi. Nəticədə Rusiya ilə Avropa institutları, eləcə də Vaşinqton arasında qızışan “sülhyaratma yarışı” həmin bəyanata fərqli yanaşmaları ortaya çıxardı. İlkin üçtərəfli formatın çərçivəsindən kənarda gedən həmin Qərb-Rusiya rəqabəti müharibədən sonrakı iki il yeddi ay ərzində cəmi iki siyasi qərarın qəbulu ilə yadda qaldı.

Hər iki qərarın Avropa İttifaqının Brüssel formatı müstəvisində ərsəyə gəldiyini söyləyən **politoloq Yeganə Hacıyeva** bu kontekstdə sülh danışıqlarında Moskvanın rolunun zəiflədiyinə diqqəti çəkdi:

**“Yaranmış situasiyada Rusiya sülh prosesində vasitəçi tərəf kimi artıq ikinci plana keçdi. Bu səbəbdən Moskvadakı üçtərəfli işçi qrupunun fəaliyyətinin əhəmiyyəti azalmış, ümumiyyətlə, Rusiyanın Cənubi Qafqazdakı maraqlarının zədələnməsinə səbəb olmuşdu. Son bir neçə ayda Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda reallaşan sülh raundlarının fonunda Kreml üçün əsas vasitəçi kimi evsahibliyi etdiyi üçtərəfli görüşlərdə hansısa qərarın qəbulu çox vacib idi. Sülh danışıqlarının Moskva formatının əhəmiyyətini artırmaqdan ötrü mütləq real nəticə, qərar lazım idi”.**

Üçtərəfli bəyanatın 9-cu bəndində Zəngəzur dəhlizinin açılması nəzərdə tutulsa da, İrəvanın bu məsələdə Fransa və İran kimi kənar aktorlara meydan verməsi, vəziyyətin, bir növ, dalana dirənməsi təəssüratını yaratdı. Əvvəlcə Tehranın, onun ardınca Moskvanın Ermənistanın Sünik (Zəngəzur) vilayətində konsulluqlarını açması isə dəhliz layihəsinin reallaşmasına yeni rənglər qatdı. Baxmayaraq ki, hələ 2021-ci ilin parlament seçkisindən öncə Ermənistanın baş naziri həmin yolun inşası üçün ərazi ayrılması barədə qərar qəbul etmişdi.

* * *

Zəngəzur layihəsinin ləngiməsini həm də Rusiyanın Ukraynada başlatdığı xüsusi hərbi əməliyyatlara bağlayan ekspert Y.Hacıyeva hesab edir ki, prosesin reallaşmasına maneçilik törədən ən başlıca səbəb Moskvanın qeyri-prinsipial mövqe nümayişi oldu:

**“Çünki Rusiya bölgədə “nə müharibə, nə də sülh” siyasəti yeritmək xəttini tutdu və bunun nəticəsində Cənubi Qafqazda marağı olan digər aktorlar da mövqelərini genişləndirməyə və möhkəmlətməyə başladılar. Amma burada nəzərə alınmalı olduqca vacib məqam var. Azərbaycan uzaqgörən, balanslı diplomatiyası ilə böyük güclərin Qarabağ ətrafındakı geosiyasi mübarizəsini Zəngəzur uğrunda yarış mərhələsinə keçirməyi bacardı. Yəni, Qarabağın geosiyasi əhəmiyyətinin, bir növ, azaldılmasına nail olduq. Bu isə Bakının növbəti diplomatik uğurudur”.**

Təkcə Zəngəzur dəhlizinin deyil, iki ölkə arasında bütün kommunikasiyaların açılmasında Rusiya da maraqlıdır. Çünki Ermənistanla Rusiyanın yeganə quru əlaqəsi Gürcüstan ərazisindən keçir və bu yol problemlidir. Moskva, Zəngəzur yolunu reallaşdırmaqla, Azərbaycan üzərindən Ermənistana rahat, həm də ucuz dəmir və avtomobil yolu əldə edəcək.

Azərbaycanın mövcud müstəvidəki mövqeyi həmişə dəyişməz olub. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, biz Zəngəzur dəhlizini açacağıq: istər danışıqlarla, istərsə də güc yolu ilə.

Bəli, bölgənin söz və qüdrət sahibinə çevrilmiş ölkəmiz qarşısına qoyduğu məqsədlərə, dəqiq müəyyənləşdirdiyi hədəflərə doğru addım-addım və qətiyyətlə irəliləyir. Azərbaycanı bu yoldan heç bir qüvvə yayındıra bilməz.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

# Sülhə təhdid yaradanları kim himayə edir?

## Separatçılar Rusiya sülhməramlılarının gözü qarşısında yeni təxribatlara hazırlaşır

**Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingenti erməni silahlı separatçılarına loyal münasibət bəsləyir, təxribatçı fəaliyyətlərinə göz yumur, bəzi hallarda onları himayə edir.**

Təkcə 2023-cü il iyunun 2-də baş vermiş olayın təhlili göstərir ki, sülhməramlıların fəaliyyətsizliyi fonunda erməni avantürizmi aktivləşməkdə, yeni təxribatlar hazırlanmaqdadır. Bunun ən böyük isbatı Xocalıdakı erməni separatçılarının sülhməramlıların gözü önündə atəş məşqləri həyata keçirmələri, yeni qarşıdurmalara hazırlaşmalarıdır. İyunun 2-də sosial şəbəkələrdə Xocalıda atəş məşqləri həyata keçirən erməni separatçıları ilə bağlı üç videoçarx yayılıb. Həmin kadrlarda silahlı terrorçuların növbəti təxribatlara hazırlaşdıqları aydın şəkildə görünür.

* * *

Bəli, narahatlıq doğuran ən vacib məqam isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən erməni separatçılarını tərk-silah etməli olan sülhməramlıların baş verənləri sadəcə seyr etmələri, terrorçulara qarşı hər hansı addımı atmamalarıdır.

Qarabağdan çıxmağa tələsməyən erməni separatçıların sülhməramlılar tərəfindən himayəsi ilə bağlı növbəti fakt erməni terrorçuların mütəmadi olaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasıdır. İyunun 2-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ordumuzun Kəlbəcər və Ağdamdakı mövqelərinin atəşə tutulması ilə bağlı məlumat yayıb. Məlumatdan aydın olur ki, mövqelərimizə atəş Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidəki separatçılar tərəfindən açılıb. Bu isə onu göstərir ki, sülhməramlılar 10 Noyabr Bəyanatının şərtinə uyğun olaraq, öz üzərilərinə götürdükləri missiyanı ya yerinə yetirə bilmir, ya da bunu etmək istəmirlər.

Erməni silahlı quldur dəstəsinin yeni təxribatlara hazırlaşdığını sübut edən üçüncü fakt onların həmin tarixdə Xankəndi-Xəlfəli-Qaybalı yolu ilə “döyüş mövqeləri”nə hərbi yüklərin daşınmasını həyata keçirməsidir. Bu dəfə də separatçılara məxsus hərbi yükləri sülhməramlılar müşayiət edib və onların təhlükəsizliyi təmin olunub. 2 iyunla bağlı dördüncü fakt isə separatçıların Xankəndidə Azərbaycana etiraz məqsədi ilə çadır-qərargah qurmaları, bütün erməniləri mübarizəyə səsləmələridir.



“Kavkazski uzel” nəşrinin yaydığı məlumata görə, “Laçın dəhlizinin açılması uğrunda xalq hərəkatı” adlanan qurumun təşəbbüs qrupunun üzvü, bloqçu David Vanyan bildirib ki, etirazların keçirilməsində əsas məqsəd Laçın-Xankəndi yolunun girişindəki sərhəd-keçid məntəqəsinin götürülməsinə nail olmaqdır.

* * *

Onu da qeyd edək ki, Xankəndidəki separatçıların bu addımı da sülhməramlılar tərəfindən heç bir müqavimətlə üzləşməyib və bu gün də davam etməkdədir. 2 iyunla bağlı yuxarıda sadalanan dörd fakt erməni separatizminin yeni təxribatlara hazırlaşdığını əyani şəkildə ortaya qoyur. Bir daha bildiririk ki, separatçıların törətdiyi və törədəcəyi təxribatlara görə bütün məsuliyyət Qarabağdakı erməni terrorçuları ilə yanaşı, həm də Rusiya sülhməramlılarının üzərinə düşür. Təbii ki, Ermənistanın siyası rəhbərliyinin də.

*Seymur ƏLİYEV*

Təqvim yada salır



# 30 il qabaq iyunun 4-də...

**Gəncədə adi bir gün idi. Günəşli, bir qədər sərin, ara-sıra çiskin yağışlı gün. Amma illər, aylar keçir, həmin gün – 4 iyun yaddan çıxmır, xatirələrdə ağır, müharibə qoxulu gün kimi qalır. Çünki şəhər sakinləri həmin səhər yuxudan top-tüfəng səsləri ilə oyanmışdılar və əvvəl nə baş verdiyini anlamamışdılar. Amma bir azdan...**

Məlum oldu ki, hökumət qoşunları şəhərdəki hərbi hissəyə hücum ediblər və nəticədə çox ciddi qarşıdurma yaranıb, ölən və yaralananlar olub. Gəncə hadisələrini araşdıran komissiyanın yekun protokolundan: **"Şahidlərin məlumatından və komissiya üzvlərinin müşahidələrinə əsasən məlum olmuşdur ki, 4 iyun 1993-cü il tarixdə, səhər saat 6 radələrində 130 nömrəli hərbi hissənin ərazisindən istifadə etməklə 709 nömrəli hərbi hissəyə tank, BMP, BTR və digər hərbi texnikalar vasitəsilə geniş hücum təşkil edilmiş, tank tırtılları altında kazarmada yuxuda olan əsgərlərdən 12 nəfəri əzilmiş və vəhşicəsinə məhv edilmişdir. Eyni zamanda, həmin kazarma top, minamyot və başqa silahlardan atəşə tutularaq tamamilə yandırılmış və daş-kəsək altında əsgərlərin cəsədləri qalmışdır. Komissiyanın məlumatına görə, basqın zamanı 69 nəfər hərbi qulluqçu və mülki şəxs öldürülmüş, 150-dən çox əsgər və zabit yaralanmışdır. Qarşı tərəfin cavab atəşi nəticəsində Bakıdan və ətraf rayonlardan gətirilmiş daxili qoşunların xüsusi təyinatlı dəstələri tərksilah olunmuş, 1250 hərbi qulluqçu girov götürülmüşdür..."**

Əslində həmin gün Gəncə sakinlərinin təqviminə "qara gün" kimi daxil olub və əslində belə bir aqibəti hamı gözləyirdi. Çünki AXC-Müsavat iqtidarı ölkəni idarə edə bilmirdi. Səriştəsiz, iddialı adamlar xalqın və dövlətin taleyi üçün qətiyyən məsuliyyət daşımırdılar.

...İqtidar qoşunlarının hücum etdiyi hərbi hissə yaşayış binalarının sıx olduğu, nəqliyyatın intensiv hərəkət etdiyi ərazidə yerləşir. Səhərin gözü açılmamış ora tanklar, BTR-lər yeritmək ağılsızlıq idi. Neçə-neçə cavan, qoca, uşaq həlak oldu. Sonrakı günlərdə Gəncə döyüş meydanını xatırladırdı. Hava limanı, şəhərin digər tikililəri dağılmışdı.

**Bəylər Nəcəfov, Gəncə hava limanının direktoru:**

– İyunun 3-də Gəncənin hava limanına TU-154 təyyarəsi enmişdi. Əvvəlcə başa düşməmişdik ki, bunlar kimdir, nəyə gəliblər. Təyyarənin içərisində 300-350 nəfərə qədər hərbi qulluqçu görəndə hiss etdik ki, böyük fəlakət baş verə bilər. Hərbçilərin yarısı avtobuslara minərək, 709 nömrəli hərbi hissəyə getdi. Yarısını isə yolda, aeroportun yaxınlığındakı meşəlikdə şəhər sakinləri saxladılar. Burada Surət Hüseynovun da adamları var idi. Hava qaralmağa az qalmış atışma başladı. Gecə saat 2-də "Qrad" qurğularından aeroporta atəş açıldı, bir neçə obyekt məhv edildi. Aeroportun bu cür hücuma məruz qaldığını görən hərbçilərin bir hissəsi qaçdı.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin rəhbərliyi ilə məsləhətləşdik ki, bizim YAK təyyarələrini də məhv edə bilərlər, onları Bakıya göndərmək lazımdır. Gecə saat 4 radələrində Yevlaxdan təyyarəçilər gəldilər, YAK-40 tipli 3 təyyarəmizi Bakıya apardılar. Təyyarəçilərə göstəriş vermişdik ki, işıqları söndürsünlər, havadakı təyyarəni görmək mümkün olmasın, çünki onları da vura bilərdilər. İyunun 5-də səhər saat 9-a yaxın aeroportu yenə qrad qurğularından atəşə tutdular, daha bir neçə obyekt dağıldı. Hava limanı xarabalığı xatırladırdı. Bakıdan, guya, köməyə gələn iqtidar qüvvələri də oradan qaçmışdılar.

...Gəncə hadisələri AXC-Müsavat hakimiyyətinin yarıtmaz və xəyanətkar siyasətinin nəticəsi idi. Faktiki olaraq ölkədə vətəndaş müharibəsi başlanmışdı. O günlərdə küçədə əlində avtomat silah oynada-oynada gedən adamları görmək adi hal almışdı. Axşam saat 6-dan sonra Gəncə ölü şəhər təsiri bağışlayırdı. Sakinlər qorxu içində idilər, həyət-bacada gəzişən və ya küçələrə, parka-xiyabana çıxan şəhər sakini görmək mümkün deyildi. Ətraf rayonlarda da vəziyyət kritik şəkil almışdı. İqtidar nümayəndələri yerlərdə hakimiyyətlərini qorumaq, adamları sakitləşdirmək əvəzinə, mövqelərini gizlincə tərk edirdilər.

Artıq bir sıra ərazilərdə - Lənkəranda, Qusarda, elə Gəncənin özündə və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. S.Hüseynovun nəzarətindəki 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olmuşdu. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülmüşdü. Hətta onun silahlı birləşmələri Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başlamışdılar.

Ümumən, Azərbaycan həmin dövrdə indiki Sudanı, Liviyanı, İraqı, Əfqanıstanı və Yəməni xatırladırdı.

Vətənin bu ağır günlərində Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyəti Gəncədə baş vermiş hadisələrlə bağlı 1993-cü il iyunun 7-də bəyanat yaydı. Sənəddə Azərbaycanda vətəndaş müharibəsinin başlandığı bildirilirdi.

**Fuad Əliyev, akademik:**

– Heydər Əliyevin ölkənin "olum, ya ölüm?" dilemması qarşısında qaldığı bir vaxtda yenidən hakimiyyətə dəvət olunması və ulu öndərin xalqın gələcək taleyini fikirləşərək dəvəti qəbul etməsi xəbəri




Azərbaycanın hər yerində, o cümlədən, Gəncədə də böyük coşqu ilə qarşılandı.

O günləri mən yaxşı xatırlayıram. Heydər Əliyev iyunun 13-də axşamüstü şəhərə gəldi. İnsan selinin o böyük şəxsiyyəti necə qarşıladığını sözlə ifadə edə bilmirəm. Hamının əli göydə idi, hamı "Heydər, Heydər" deyirdi. Səmimiyyətimə inanın, nə ondan əvvəl, nə də ondan sonra, mən Gəncədə bir o qədər insanın şəhərə çıxdığını görməmişəm.

Milli Qurtuluş Günü kimi Azərbaycan tarixinə həkk olmuş 1993-cü ilin 15 iyunu məhz Heydər Əliyev fenomeninə rəğbətin təntənə salnaməsidir. Vətənini, xalqını sevən, dəhşətli hadisələri gözləri ilə görən insanlar üçün bu gün əsl qəhrəmanlıq və şücaətin zəfər tarixidir. Bu unudulmaz tarixi yaradan, qoruyub saxlayan isə ulu öndər Heydər Əliyevdir.

Yadımdadır, 1997-ci il iyunun 15-də Heydər Əliyevin Azərbaycanda ilk dəfə rəhbər seçilməsinin 28-ci ildönümü münasibətilə Gəncədə, dahi şəxsiyyətin adını daşıyan parkda şəhər ziyalılarının geniş toplantısı keçirilirdi. Məhz, həmin möhtəşəm tədbirdə Gəncə ziyalıları və şəhər ictimaiyyətinin nümayəndələri tərəfindən hər il 15 iyun tarixinin "Milli Qurtuluş Günü" kimi qeyd edilməsi təklif olundu. Əslində bu tarixi günü gəncəlilər Azərbaycanın dövlət müstəqilliyinin təminatçısı olan Ümummilli liderə böyük məhəbbətlərinin tərənnümü kimi qəbul edirlər.

Beləliklə, xalqımız Azərbaycanın ağır və tarixən məsuliyyətli günündə ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edir. Ümummilli lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edir, iyunun 9-da Bakıya gəlir və qısa zaman ərzində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını alır.

Bir faktı nəzərə çatdıraq ki, AXC-Müsavat iqtidarı Ulu öndəri Bakıya dəvət etmək haqqında hələ Gəncə hadisələrinin ertəsi günü düşünməyə başlamışdı. Dahi şəxsiyyətin özü isə bu məsələ ilə bağlı çıxışlarının birində belə deyirdi: **"1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".**

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur ki, böyük dövlət xadimi yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı.

İyunun 9-da xalq, o cümlədən günlərini qorxu içində keçirən Gəncə sakinləri azacıq da olsa, dərindən nəfəs aldılar. Artıq hamı düşünürdü ki, Heydər Əliyev gəlibsə, demək qarşıdurmaya son qoyulacaq. İyunun 13-ü günü bu inam bir qədər də artdı. Həmin günü bu sətirlərin müəllifi də yaxşı xatırlayır. Milli Məclisin iclasında Heydər Əliyevin bir qrup jurnalistin müşayiəti ilə Gəncəyə yola düşməsi xəbəri bütün şəhəri ayağa qaldırmışdı. Gəncəlilər ulu öndərin yolunu səbirsizliklə gözləyirdilər. Mən də gözləyənlər arasında idim.

Şər qarışana yaxın Heydər Əliyev şəhər icra hakimiyyətinin qarşısındakı meydana gəldi. Məlumat almışdım ki, burada görüşü olmayacaq. Amma ulu öndər eşidəndə ki, meydanda on minlərlə adam onu gözləyir, onun üzünü görmək, səsini eşitmək istəyir, o zaman burada ayaq saxladı. Aradan 30 il keçsə də, həmin görüşü yada salanda indi də həyəcanlanır, özümü ələ ala bilmirəm. Bu səhnə xalqın öz liderinə olan məhəbbəti, inamı idi və onu kənardan seyr etmək necə də qürurverici idi! Siz inanırsınız, insanlar ağlayırdılar, bu sevinc göz yaşları idi.

O da yadımdadır ki, 5 il sonra, 1998-ci il oktyabrın 7-də elə o meydanda Gəncə seçiciləri ilə görüşən Heydər Əliyev həmin günləri xatırlayaraq deyirdi: **"Gəldim, ancaq öz üzərimə vəzifə götürmədim. Bir həftə mənimlə danışıqlar getdi. Burada qan tökülmüşdü. Ona görə mən bütün çətinliklərə baxmayaraq, o vaxt həyatımın böyük təhlükə altında olduğunu görərək, böyük riskə gedərək 1993-cü ilin iyun ayının 13-də buraya, Gəncəyə, qardaş qanı tökülən bu qədim diyara gəldim. Burada vəziyyətin nə qədər gərgin olduğunu gördüm. Eyni zamanda, gəncəlilərin mənə nə qədər dəstək verdiyini görərək Bakıya dönüb iyun ayının 15-də Ali Sovetin sədri vəzifəsini öz üzərimə götürməyə razılıq verdim. Məni Ali Sovetə sədr seçdilər".**

...Ertəsi gün Heydər Əliyev dağıdılmış hərbi hissəyə getdi, hadisə şahidlərilə, əsgərlərlə, komandirlərlə görüşdü, onları dinlədi.

Lap yaxınlıqda idim və bu böyük şəxsiyyətin hər sözünü aydın eşidirdim. Hamı istəyirdi ona yaxınlaşsın, ürək sözünü desin. Söhbətin şirin yerində əsgərlərdən kimsə havaya qumbaraatandan atəş açdı və məqsəd nə idi, bilmədik. Səs o qədər dəhşətli idi ki, hamı qorxdu, hətta yerə sərilənənlər də oldu.Yaxınlığında olduğumdan aydın görə bildim ki, Heydər Əliyev heç gözünü də qırpmadı. Bircə astadan "Surət, sən bilərsən, bu nə idi?" deyib özünəməxsus şəkildə gülümsədi. S.Hüseynov isə bir qədər duruxub "yəqin əlində təsadüfən açılıb, Heydər Əliyeviç, cəzasını verərik" –deyə izahat vermək istədi...

Bəli, 30 il qabaq Ulu öndərin xilaskarlıq missiyası Azərbaycanı fəlakətdən qurtardı. Bu taleyüklü vəzifəni yalnız Heydər Əliyev kimi tarixi şəxsiyyət, təcrübəli siyasətçi, vətənpərvər insan, güclü lider yerinə yetirə bilərdi. Heydər Əliyev Azərbaycanı fəlakətdən qurtarıb inkişaf yoluna yönəltdi, müstəqilliyimizi əbədi etdi.

Ata yolunu çox böyük sədaqətlə, uğurla davam etdirən Prezident İlham Əliyev isə Azərbaycanı güclü dövlətə çevirə bildi, onun ərazi bütövlüyünü bərpa etdi. Bu gün ölkəmiz dünyada sayılıb-seçilən dövlətlərdən biridir. Öz sözü, müstəqil siyasəti olan yenilməz dövlətimizlə hər bir azərbaycanlı fəxr edir.

30 il qabaq vətəndaş müharibəsi ilə üzləşən dövlətimizin Heydər Əliyev kimi qüdrət sahibi, İlham Əliyev kimi davamçısı olmasaydı, taleyimizin necə olacağı hamıya aydın idi. Yaxşı ki, belə mübariz oğullarımızın sayəsində Vətənimiz bu gün özünün işığı ilə bütün dünyaya şəfəq salır...

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Tbilisidə Ümummilli liderə həsr olunmuş konsert






**Dünən Tbilisi Dövlət Opera və Balet Teatrında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qala-konsert keçirilib.**

Konsert Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, "Paşa Bank"ın Gürcüstan filialının, SOCAR-ın Kulevi Terminalının, "Dapna" və "AS Georgia" şirkətlərinin, Gürcüstandakı Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) dəstəyi və ölkəmizin Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə reallaşıb.

Səfir Faiq Quliyev Azərbaycan ilə Gürcüstan arasındakı dostluq münasibətlərinin tarixindən söz açıb, ümummilli lider Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində ikitərəfli münasibətlərin yeni müstəvidə daha da inkişaf edərək möhkəmləndiyini bildirib.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışında ölkələrimiz arasındakı əməkdaşlığın hazırkı səviyyəyə yüksəlməsində Heydər Əliyevin uzaqgörən siyasətinin önəmini vurğulayıb.

Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Levan Davitaşvili çıxışında Ulu öndərin 100 illiyinə həsr olunmuş konsertdə iştirak etməkdən böyük qürur duyduğunu vurğulayıb.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov çıxış edərək, Fondun fəaliyyəti barədə ətraflı məlumat verib.

Sonra konsertdə Tbilisi Dövlət Opera və Balet Teatrının orkestri Azərbaycanın Xalq artisti dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə çıxış edib. Orkestr əvvəlcə Niyazinin və Fikrət Əmirovun bəstələrini məharətlə ifa edib.

Tanınmış gürcü opera müğənnisi Tamuna Çeqanata, pianoçu Elisa Volkvadze, Azərbaycanın tanınmış mədəniyyət ustaları Elvina Həsənova, Xalq artisti Samir Cəfərov, kamança ustası Elnur Mikayılov, muğam ifaçıları Mirələm Mirələmov, Kamilə Nəbiyeva Azərbaycan bəstəkarlarının mahnı və bəstələrini ifa ediblər.

Xatırladırıq ki, konsertə gələn qonaqlara Heydər Əliyev Fondunun nəşr etdirdiyi "Heydər Əliyev 100: firavanlığın memarı" kitabı təqdim olunub.

Binanın ikinci mərtəbəsindəki sərgi salonunda isə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, o cümlədən Gürcüstana səfərlərini və keçirdiyi tarixi görüşləri əks etdirən fotosərgi açılıb.

# Alen Simonyan zamin axtarışında

**Ermənistanda indiyədək mövcud olmuş rejimlərin və hayların özlərinin hər zaman xarici qüvvələrin timsalında arxa-dayaq axtarmağa çalışması heç kimə sirr deyil. Haylar məhz xarici havadarlarının hesabına Azərbaycan torpaqlarını işğal ediblər, XX əsrdə xalqımızın başına olmazın müsibətləri gətiriblər. Azərbaycanın yürütdüyü uğurlu xarici siyasət nəticəsində onlara sıx dəstək verən ölkələr neytrallaşdırılıb. Ancaq Müdafiə Nazirliyinin də bu ilin martın 30-da yaydığı açıqlamada deyildiyi kimi, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa, onlardan biri Fransa, ikinci isə İrandır.**



Son bir-iki ayda İrandan ölkəmizə ünvanlanan təhdidlər xeyli azalıb. Ən azı münasibətlər ilin ilk rübündə olduğu kimi, gərgin deyil. Ermənistan isə son vaxtlar Hindistanla müttəfiqlik münasibətlərini gücləndirməyə çalışır. Ölkələr arasında hərbi əməkdaşlıq qurulub, vaxtaşırı xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilir. Qarşılıqlı səfərlərin sayında artım var. Azərbaycan da Hindistanla münasibətləri inkişaf etdirir və prosesdə həm Bakı, həm də Dehli maraqlıdır. Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hindistanın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananı qəbul edib. Səfir qəbul zamanı bildirib ki, ölkəsi Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasındadır və ötən il qarşılıqlı ticarətin 155 faiz artması bunun yaxşı göstəricisidir. Hindistan Prezidenti Draupadi Murmunun mayın 27-də cənab İlham Əliyevə Müstəqillik Günü münasibətilə ünvanladığı təbrik məktubunda isə Hindistan və Azərbaycan arasında tarixi köklərə söykənən əlaqələrin mövcud olduğu bildirilir. Qeyd olunur ki, son zamanlar hər iki ölkənin ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artıb: “Ümidvaram ki, əməkdaşlığımız qarşılıqlı hörmət və maraqlar əsasında daha da inkişaf edəcəkdir”. Bütün bunları ümumiləşdirəndə, hazırda Ermənistanın dünyada yeganə əsas müttəfiqinin Fransa olduğunu qeyd etmək mümkündür.



Görünür, elə bu səbəbdəndir ki, Ermənistan parlamentinin sədri, baş nazir Nikol Paşinyanın yaxın adamı hesab olunan Alen Simonyan zamin axtarışına çıxıb. O, parlamentdə keçirdiyi brifinqdə deyib ki, Rusiya, Avropa İttifaqı və ABŞ Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin təminatçısı olmağa hazırdır, lakin bunun üçün ən möhkəm mexanizmi seçmək lazımdır. O əlavə edib ki, danışıqların aparıldığı bütün mərkəzlər sazişin həyata keçirilməsinin təminatçısı olmağa hazırdır. Lakin Ermənistan tərəfi üçün bu təminatın razılaşmalara əməl olunması məsələsində ardıcıllığın olması vacibdir. Mövcud kontekstdə Simonyan bildirib ki, noyabrın 10-da imzalanmış üçtərəfli razılaşmanın həyata keçirilməsinin tərəfdarı olan zamin davranışı və bəyanatları şəxsən onu qane etmir. “Bizim 10 noyabr təcrübəmiz var və biz keçmişin səhvlərini təkrar etməyəcəyik”, – deyə spiker bildirib.

Jurnalistin “siz Rusiyanı nəzərdə tutursunuzmu” sualına isə Simonyan mənfi cavab verib və izah edib ki, söhbət təminatın daha aydın və başadüşülən mexanizmlərindən gedir. Yenə jurnalistlərin ATƏT-dən nümunə götürərək beynəlxalq formatdan söhbət getməsi ilə bağlı replikasına cavab olaraq parlamentin sədri əlavə edib ki, onun fikrincə, bir ölkə təminatçı kimi çıxış etsə, daha yaxşı olar: “Təcrübə göstərir ki, bir neçə ölkə prosesə cəlb olunanda ya onların arasında yaranan münaqişə səmərəli işə mane olur, ya da məsuliyyəti biri-birinin üzərinə atmağa çalışırlar.

A.Simonyan bu məqamda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ünvanına giley-güzar yağdırıb. O, əvvəlcə qurumda qərarların konsensusla qəbulunu KTMT-ni misal çəkib. Lakin diqqəti Rusiyanın üstün mövqe tutmasına yönəldib. Bununla belə əlavə edib ki, Moskva heç də həmişə qərarların qəbulunda fəal rol oynamır. Simonyan Ermənistanın KTMT müstəvisində iki sənədi imzalamaqdan imtina etdiyini xatırladıb: “Ona görə də yaxşı olardı ki, bir ölkə zamin olsun. Bu, Rusiya, Fransa, Almaniya ola bilər. Amma dəqiq mexanizmlərə malik bir ölkə. Əgər qərara alınsa ki, Laçın yolu bütün nəqliyyat növləri üçün açıq olmalıdır, deməli bu qaydaya əməl olunmalıdır”.

Ermənistan parlamentinin sədri Azərbaycanın ünvanına böhtan atmaqdan da qalmayıb. Deyib ki, “etnik təmizləmə” (?) və ya atışma zamanı tərəfdaşın necə hərəkət edəcəyini dəqiq fiksə etmək lazımdır.

Beləliklə, A.Simonyan indiyədək özünü N.Paşinyanın sadiq tərəfdarı kimi göstərsə də, onun son açıqlaması faktiki olaraq, baş nazirlə fikir müxtəlifliyində olduğunu göstərir. Bu fakt Paşinyanın komandası daxilində ona qarşı çıxan qüvvələrin mövcudluğunu göstərir. Çünki Nikol indiyədək heç bir halda hansısa mexanizmlərin olmasından, zamin ölkədən bəhs etməyib. O, yalnız Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təminatı məsələsindən söz açıb. Rəsmi Bakı isə Qarabağ ermənilərinin Azərbaycan vətəndaşları olduqlarını və ölkənin bütün vətəndaşları kimi, Konstitusiyamızda əksini tapmış hüquq və imtiyazlardan yararlanacaqlarını bəyan edib. Azərbaycan üçün hazırda prioritet məsələ ölkəmizin yurisdiksiyasından irəli gələn vəzifələrin həllidir. Hansısa zəmanətçiyə, moderatora və ya vasitəçiyə ehtiyacımız yoxdur. Simonyan tərəfindən bu arqumentin, belə bir narrativin ortaya atılması isə təkcə Bakının yox, həm də İrəvanın mövqeyi ilə üst-üstə düşmür.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

*Ekspert rəyi*



**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının müəllimi, politoloq**

– Sülh müqaviləsi imzalandıqdan sonra ona hansısa ölkələrin, yaxud beynəlxalq institutların zamin durması məsələsi Ermənistanın müxtəlif rəsmiləri tərəfindən vaxtaşırı qaldırılır. Əgər Ermənistan Azərbaycanın əsas tələblərini yerinə yetirərsə və sülh müqaviləsinin imzalanması ilə bağlı əsas məqamlar üzrə razılığa gələcəyiksə, o zaman zaminçilik institutunun olması məsələsi müzakirə predmeti ola bilər. Əsas problem Azərbaycan və Ermənistan arasında aparılan danışıqlarda İrəvanın ortaya hər dəfə yeni məsələlər atması, yeni terminlərlə gündəmə gəlməsidir. Ancaq ölkənin baş naziri Qarabağın Azərbaycan ərazisi olmasını artıq etiraf edib. Buna baxmayaraq, Simonyan hansısa təsisatların zaminliyindən dəm vurur. Biz bu və digər məsələlərə görə sülh müqaviləsini hələ də imzalanmadığını görürük. Yəni, İrəvan tərəfindən belə hallar baş verir.

Ermənistan parlamentinin sədri Azərbaycanın regionda yaratdığı reallıqları yaxşı düşünüb dəyərləndirmək məcburiyyətindədir. Ancaq görünən odur ki, hələ də bunu dərk edə bilmir. Simonyan başa düşməlidir ki, bölgənin təhlükəsizlik arxitekturası məhz güclü Azərbaycan dövlətinin səyi nəticəsində qurulmaqdadır. Sülh müqaviləsinin həyata keçirilməsinə, Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminatı da Azərbaycan dövləti verəcək.

Artıq beynəlxalq institutlar və aparıcı dövlətlər Azərbaycanın haqq səsini eşitməkdə və Qarabağın ölkəmizin ayrılmaz tərkib hissəsi olduğunu qəbul etməkdədirlər. Nikol Paşinyanın son etirafı da bu təzyiq fonunda baş verdi. Bundan sonra tez bir zamanda Ermənistan verdiyi sözlərə əməl etməlidir. Çünki uzun müddət gözləyəsi deyilik. 2023 və 2024-cü il bu məsələnin həllində əsas illər olmalıdır. Çünki bundan sonra regionda vəziyyət gərginləşə bilər. Paşinyan bunu çox yaxşı başa düşməlidir. Əslində, ya Ermənistan Azərbaycan və Türkiyə ilə yeni münasibətlərə qədəm qoyur, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul edir, ərazi iddialarının üzərindən xətt çəkir, ya da Ermənistan dövlətçiliyinin özü sual altına düşür. Bu, artıq Azərbaycan və Türkiyə ilə bağlı deyil. Ümumən, erməni dövlətçiliyinin gələcəkdə təhdid altında qalmasının ən böyük səbəbkarı məhz onun indi yanında olduğu, siyasi təhlükəsizlik çətiri altında gizləndiyi ölkələr olacaqdır. İrəvanın Bakı və Ankaranın yanında olması isə onun təhlükəsizliyi üçün çox böyük sığorta deməkdir. Əgər Ermənistan düşmənçiliyi, kin-küdurəti davam etdirəcəksə, o zaman təklənəcək.

# Lütfi Zadə olimpiadası başa çatdı



**Lütfi Zadə adına məntiq olimpiadası və məktəblilərarası fənn müsabiqələrinin final mərhələsi keçirilib.**

Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, final mərhələsi Bakı, Gəncə, Şəki, Sumqayıt, Şirvan və Naxçıvan şəhərlərində, ümumilikdə 5 mərkəzdə təşkil edilib.

Şagirdlər iyunun 7-dən etibarən https://portal.edu.az üzərindən “Müsabiqə və olimpiadalar” bölməsindən nəticələrini əldə edə bilərlər.

Qeyd edək ki, Lütfi Zadə olimpiadasında ən yüksək nəticə göstərən 60, fənn müsabiqələrində isə 42 nəfər qalib hesab olunur.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

**“Bakı Enerji Həftəsi-2023” çərçivəsində “Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı” mövzusunda xüsusi sessiya keçirilib. “Heydər Əliyev ili” çərçivəsində Naxçıvan şəhərində təşkil olunan xüsusi sessiyanın iştirakçıları ilk öncə ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.**

Sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisində tədbir iştirakçıları ilə Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli arasında görüş keçirilib.

Azərbaycan Respublikasının dövlət qurumlarının, Naxçıvan Muxtar Respublikasının aidiyyəti strukturlarının, Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik nümayəndəliklərin, Bakı Enerji Forumuna qatılan xarici şirkətlərin nümayəndələrinin iştirakı ilə təşkil olunan Naxçıvan xüsusi sessiyası işə başlayıb. Sessiya iştirakçıları muxtar respublikada fəaliyyət göstərən emal və xidmət müəssisələri tərəfindən istehsal olunan məhsulların nümayiş olunduğu stendlərlə tanış olublar.

# Bakı Enerji Forumu Naxçıvanda davam edib



Xüsusi sessiya SOCAR-ın mətbuat katibi Orxan Hüseynovun moderatorluğu ilə Naxçıvan Biznes Mərkəzində keçirilib. Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını ulu öndər Heydər Əliyevin anadan olduğu Naxçıvanda salamlamaqdan məmnunluq hissi duyduğunu bildirib və xüsusi sessiyanın işinə uğurlar diləyib.

Müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi ağır vəziyyətdən bəhs edən F.Nəcəfli məhz ulu öndərin rəhbərliyi ilə Azərbaycanın bu ağır sınaqdan şərəflə çıxdığını vurğulayıb. O, bu xüsusda Heydər Əliyevin müəyyənləşdirdiyi enerji strategiyasının, “Əsrin müqaviləsi”nin imzalanmasının ölkəmizin hərtərəfli inkişafında müstəsna rol oynadığını diqqətə çatdırıb.

Sonra Naxçıvanın yaşıl enerji potensialından bəhs edən videoçarx nümayiş etdirilib.

Panel müzakirələrində çıxış edən energetika naziri Pərviz Şahbazov bu gün Naxçıvanın “yaşıl enerji” marafonuna qoşulduğunu söyləyib. Nazir Naxçıvanda “yaşıl enerji zonası”nın inkişafı üçün konsepsiyanın hazırlandığını və əlverişli günəş radiasiyasına malik Naxçıvanın bu məqsədin həyata keçirilməsi üçün ideal ərazi olduğunu vurğulayıb.

Muxtar respublikanın elektrik enerjisi tələbatının üçdəbirinin bərpa olunan enerji hesabına ödəndiyini qeyd edən Pərviz Şahbazov Naxçıvanda 1500 MVt gücündə yaşıl enerji layihələrinin reallaşdırılmasının hədəfləndiyini bildirib: “Bu gün burada “TotalEnergies” və Nobel Energy Management” şirkətləri ilə ümumi gücü 900 MVt olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalayacağıq. Bu güclərin 650 MVt-ı məhz Naxçıvanda yaradılacaq”.

Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf bu il Azərbaycan xalqının ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyini bildirib. O, ümummilli liderin əziz xatirəsinə ehtiram əlaməti olaraq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən bir çox tədbirlərin, Bakı Enerji Forumu çərçivəsində xüsusi sessiyanın ulu öndərin anadan olduğu Naxçıvanda keçirildiyini vurğulayıb.

“Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı” mövzusunda xüsusi sessiyanın Naxçıvan şəhərində təşkil olunmasının əhəmiyyətindən bəhs edən SOCAR prezidenti Naxçıvanın zəngin bərpaolunan enerji potensialına malik olduğunu, bu sahənin inkişafının ölkəmizin enerji təhlükəsizliyinin gücləndirilməsinə və karbon emissiyasının azaldılmasına mühüm töhfə verəcəyini vurğulayıb.

“Yaşıl enerji”yə keçidin bu gün müasir dövrün əsas çağırışlarından biri olduğunu qeyd edən Rövşən Nəcəf SOCAR-ın uzunmüddətli korporativ hədəflərindən danışıb, bu xüsusda enerji keçidi, rəqəmsallaşma və innovasiya kimi fəaliyyət sahələrinin prioritet istiqamətlər olaraq müəyyənləşdirildiyini, SOCAR-ın quruda və dənizdə bərpa olunan enerji mənbələri ilə bağlı potensial imkanları mütəmadi olaraq araşdırdığını və nəzərdən keçirdiyini diqqətə çatdırıb.

Azərbaycanın möhtəşəm enerji tarixinin bir hissəsi olmaqdan böyük qürur duyduğunu bildirən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bundan sonra da ölkənin enerji gələcəyinin formalaşmasına dəstək verməyə hazır olduqlarını ifadə edib. “TotalEnergies” şirkətinin Azərbaycan üzrə icraçı direktoru Regis Agut çıxışında Naxçıvan və Şərqi Zəngəzur regionları da daxil olmaqla Azərbaycanın zəngin bərpa olunan enerji potensialına malik olduğunu bildirib. “China Energy International Group Co.Ltd” şirkətinin baş vitse-prezidenti Xiaodan Lin Naxçıvan və Şərqi Zəngəzurun günəş enerjisi potensialından bəhs edib, bu regionların Azərbaycanda günəş enerjisi layihələrinin inkişafına töhfə verəcəyini vurğulayıb.



Tədbir çərçivəsində SOCAR ilə “China Energy International Group Co.Ltd” şirkəti arasında əməkdaşlığa dair saziş imzalanıb. Bundan başqa, Energetika Nazirliyi və “TotalEnergies” şirkəti arasında “250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu”, Energetika Nazirliyi və Nobel Energy Management MMC arasında “Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb.

Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi ilə tanış olan qonaqlar ulu öndərin sevdiyi və ümummilli liderə həsr olunan musiqili kompozisiyalardan ibarət konsert proqramını izləyiblər.

Tədbir çərçivəsində, həmçinin Naxçıvanın tarixi-memarlıq abidələrinə, o cümlədən, “Möminə Xatun” türbəsinə və Açıq Səma altında Muzey Kompleksinə tur təşkil edilib.

***Səbuhi HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Neft həftəsi ölkəmizin enerji potensialının nümayişinə çevrilib

*(əvvəli 1-ci səhifədə)*

SOCAR-ın birinci vitse-prezidenti daha sonra o dövrdə ümummilli liderin təşəbbüsü və səyi ilə dünyada məşhur olan üzən qazma qurğularının, habelə digər istiqamətlərdə işləməyə imkan verən texnologiyaların əldə edildiyini vurğulayıb.




Xatırladaq ki, Azərbaycanın müstəqilliyinin ilk illərində yeni yataqların kəşf edilməsi prioritet istiqamətlərdən biri idi. Məhz həmin vaxt qazma qurğularının sayının 11-ə çatdırılması, 75 növdə 400-dən çox gəminin alınması bunun bariz ifadəsi idi. Bəli, bu tədbirlərdən sonra yataqların kəşfi sürətləndi. Həmin yataqlarla bərabər, bir sıra kiçik platformalar da aşkar olundu.

Yeri gəlmişkən, dahi şəxsiyyət hələ sovet dövründə Azərbaycanın, necə deyərlər, gec-tez müstəqil olacağını hiss etdiyi üçün, neft sənayesinin inkişafını daim diqqətdə saxlayırdı. Belə ki, o zaman neft sənayesində müəyyən layihələr gerçəkləşdirilmiş və sözügedən sahədə səmərəli fəaliyyət üçün əlverişli şərait yaradılmışdı. Dünyada məşhur olan "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqlarının "Günəşli" hissəsinin 1979-cu ildə, "Çıraq" hissəsinin 1985-ci ildə, "Azəri" hissəsinin isə 1987-ci ildə kəşf edilməsi məhz bunun parlaq ifadəsi idi.

X.Yusifzadənin sözləri ilə desək, "Azəri-Çıraq-Günəşli" sovet dövründə kəşf edilsə də, tam dərinliklərində iş aparılmamışdı. Ölkəmiz müstəqil olandan sonra isə yataqların birgə işlənilməsi ilə bağlı xarici mütəxəssisləri dəvət etmək məsələsi qarşıya çıxmışdı. Lakin həmin vaxt bu təşəbbüsün əleyhinə çıxanlar Azərbaycanın sovet dövründən neft sənayesində təcrübəsinin olduğunu deyənlər idi. Əlbəttə, bu məqamı heç kim danmırdı. Amma dünyada belə bir təşəbbüsdən, yəni xarici mütəxəssislərin təcrübəsindən yararlanmaq kimi zəruri fəaliyyət də hamıya bəlli idi. Şübhəsiz ki, belə bir məsul vaxtda son qərar dahi rəhbər Heydər Əliyev tərəfindən verildi və və xarici şirkətlər respublikamıza dəvət olundu. Tez bir zamanda tender elan edildi, əsasən ABŞ, İngiltərə, Türkiyə şirkətlərinin ölkəmizə gəlmələri gerçəkləşdirildi. Danışıqlar Bakıda, İstanbulda, ABŞ-ın Hyuston şəhərində aparıldı və müsbət nəticələr əldə olundu.

X.Yusifzadə forumda o hadisələri xatırlayaraq deyib: "İlham Əliyev həmin dövrdə Dövlət Neft Şirkətində çalışırdı. Onun xarici dilləri bilməsi, xaricdə təhsil alması işin gedişinə çox kömək etdi. Vaşinqtonda görüş zamanı qarşı tərəf bildirdi ki, Azərbaycan Rusiya ilə Xəzər dənizinin statusu məsələsini həll etməlidir. Hələ o vaxt 1994-cü il idi. Həmin vaxt mən Heydər Əliyevə zəng vurdum və qarşı tərəfin istəyini məruzə etdim. Heydər Əliyev İlham Əliyevi Vaşinqtona göndərdi, bu məsələni həll etdi. Biz ümumi razılığa gəldik. Beləliklə, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləs"inin imzalanmasına nail olduq. Rusiya ilə Xəzər dənizinin statusu ilə bağlı məsələni isə 2002-ci ildə həll etdik".

Beləliklə, Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə Hasilatın pay bölgüsü sazişinin imzalanması yenicə müstəqillik qazanmış ölkəmiz üçün tarixi hadisə idi. Bu müqavilə ümummilli lider Heydər Əliyevin gərgin zəhməti hesabına gerçəkləşdi. Ulu öndər həmin sazişə təkcə Azərbaycana firavanlıq, sosial rifah gətirəcək iqtisadi sənəd kimi baxmırdı. O, "Əsrin müqaviləsi"ni, həm də Azərbaycanın istiqlalını qoruyacaq saziş kimi dəyərləndirirdi.

"Əsrin müqaviləsi" Azərbaycanın taleyində həlledici rol oynadı. Dünyanın aparıcı dövlətləri tərəfindən ölkəmizin etibarlı tərəfdaş olduğu yüksək dəyərləndirildi. Saziş imzalandıqdan sonra xarici şirkətlər tərəfindən daha 35 sazişə imza atıldı. Müqavilənin icrası nəticəsində isə Azərbaycanda neft hasilatı ən aşağı səviyyədən–1997-ci ildə 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdırıldı. Beləliklə, neft hasilatı 5,6 dəfə yüksəldi.

Bakı Enerji Forumunda neft sənayesinin uğurlarını ifadə edən son iqtisadi göstəricilər də diqqətə çatdırılıb. Belə ki, cari il mayın 1-dək "Şahdəniz" qaz-kondensat yatağından 192 milyard kubmetr qaz hasil edildiyi, indiyədək həmin yataqdan 41 milyon ton kondensat hasil olunduğu vurğulanıb.

Yeri gəlmişkən, sözügedən yatağın qaz ehtiyatları 1,2 trilyon kubmetr, kondensat ehtiyatları isə 240 milyon ton qiymətləndirilir. Həmçinin "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunun işlənilməsinə başlanılandan bu il mayın 1-dək 573 milyon ton neft hasil edildiyi, bugünədək isə yataqlar blokundan 208 milyard kubmetr qaz hasil olunduğu deyilir.

Onu da qeyd edək ki, indiyədək AÇG-də hasil edilən neftin 340 milyon tondan çoxu Azərbaycanın mənfəət neftinin payına düşüb. Respublikamızda çıxarılan 654 milyon ton neftin 484 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə dünya bazarlarına daşınıb.

Azərbaycan Avropa bazarının qaz təchizatında da fəal iştirak edir. Respublikamız 2027-ci ilə qədər adıçəkilən bazara "mavi yanacaq" tədarükünü iki dəfə artırmağı nəzərdə tutur.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Qeyd edim ki, ötən il respublikamızdan Avropaya 9,3 milyard kubmetr qaz ixrac olunub. Bu göstərici 2021-ci ildə 8 milyard kubmetr təşkil edib. Ölkəmiz bu il həmin həcmi 12 milyard kubmetrə çatdırmağı planlaşdırıb. Ümumiyyətlə, Azərbaycan 2027-ci il üçün bu rəqəmi 20 milyard kubmetrə çatdırmağı qərarlaşdırıb.

Bütün bu proqnozlar verilərkən real potensiala–nəhəng "Şahdəniz" və "Abşeron" yataqlarının ehtiyatlarına əsaslanılıb.

Onu da xatırladım ki, hazırda ölkəmizin strateji tərəfdaşı olan BP şirkəti ilə dərin qatlardan qaz hasilatı üzrə layihələr həyata keçirilir. Gələn ilin sonuna qədər böyük dərinlikdən ilk qazın alınacağı gözlənilir.

Bütün bunlarla bərabər, mövcud yataqlarda hasilatın yüksəlməsi hesabına qaz hasilatı və ixracının həcminin artması, yaxın illərdə isə yeni yataqlarda hasilat planlaşdırılır. Hazırda Azərbaycan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və bu ildən isə Rumıniyaya ixrac edilir. Cari ilin sonuna qədər birləşdirici boru kəmərlərinin istifadəyə verilməsi ilə qazın Macarıstan və Slovakiyaya çatdırılması da nəzərdə tutulur. Ümumilikdə, qaz tədarük edilən ölkələrin sayının 10-a çatdırılması gözlənilir.

Prezident İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində Avropa ilə bir sıra layihələr, məsələn, neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra "yaşıl hidrogen"ə qədər layihələr imzalandığın bildirib. Bütün bunlardan əlavə, respublikamızla adları çəkilən ölkələr arasında güclü ötürmə xətləri qurulacağını və bununla da tamamilə yeni vəziyyət yaranacağını, bir sözlə, Azərbaycanın Avrasiyanın enerji xəritəsini yenidən cızacağını vurğulaması da ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınmasının təsdiqidir.

## Cənub Qaz Dəhlizi Azərbaycandan Avropaya enerji körpüsüdür

### Onun birləşdirici kəməri ilə 983 milyon kubmetr qaz nəql olunub

**Azərbaycan təbii qazını Bolqarıstana çatdıran Yunanıstan-Bolqarıstan birləşdirici boru kəməri (IGB) vasitəsilə kommersiya əməliyyatlarına başlanılandan bəri 983 milyon kubmetr "mavi yanacaq" nəql olunub.**

Bunu IGB-nin layihə operatoru olan İCGB şirkətinin Bolqarıstan üzrə icraçı direktoru Teodora Qeorqiyeva Bakı Enerji Forumunda bildirib.

"IGB Cənub Qaz Dəhlizinin tərkib elementlərindən biridir və onun Avropa İttifaqı səviyyəsində əhəmiyyəti var. Kəmər ötən ilin oktyabrında istifadəyə verilib. Bu da o deməkdir ki, qeyd olunan infrastruktur vaxtında hazırlanıb, ona ehtiyac olan vaxtda qurulub", - deyə icraçı direktor qeyd edib.




Xatırladaq ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının istismarının II mərhələsi çərçivəsində hasil edilən "mavi yanacağın" Bolqarıstana nəqlini nəzərdə tutur. "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın tədarükü üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Azərbaycanın təbii qazı Bolqarıstanın tələbatının 25-30 faizini ödəyə biləcək.

## "Qaradağ" Günəş Elektrik Stansiyası tezliklə işə salınacaq

**Bakı Enerji Həftəsi çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə BƏƏ-nin Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) Aşağı Karbon Həlləri və Beynəlxalq İnkişaf üzrə İcraçı direktoru və "Masdar" şirkətinin İdarə Heyətinin üzvü Musabbeh Al Kaabinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**



Energetika Nazirliyinin məlumatına əsasən, görüşdə iki ölkə arasında yüksək səviyyəli münasibətlərin "Masdar" ilə irimiqyaslı bərpaolunan enerji layihələri üzrə uzunmüddətli əməkdaşlığın sütunu olduğu vurğulanıb. 230 meqavatlıq "Qaradağ" GES-in bu ilin payızında istifadəyə veriləcəyi, bununla da "Masdar"ın layihələrin vaxtında reallaşdırılmasına sadiq olduğu qeyd edilib.

Ümumi gücü 4 QVt olan digər layihələrin icrası ilə bağlı da əhəmiyyətli irəliləyişlər olduğu, bərpaolunan enerji güclərinin ölkənin enerji sisteminə inteqrasiyası üçün elektrik şəbəkəsinin öyrənilməsinə "Masdar"ın dəstəyi və bu xüsusda görülən işlər diqqətə çatdırılıb.

## Harvard Universiteti Azərbaycan iqtisadçıları ilə əməkdaşlığa başlayıb



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Harvard Universitetinin Con Kennedi Dövlət İdarəçilik Məktəbinin İnkişaf Laboratoriyasının (Growth Lab) müraciəti əsasında hibrid formatda görüş keçirilib.**

Görüşdə məqsəd İİTKM ilə Harvard Universitetinin İnkişaf Laboratoriyası arasında birgə tədqiqatlara başlanması, eləcə də layihələrin icrası üzrə əməkdaşlığın genişləndirilməsi barədə razılığın əldə edilməsi olub.

***"Xalq qəzeti"***

# SOCAR "MVM Group" macar şirkəti ilə müqavilə imzaladı

**Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Macarıstanın "MVM Group" şirkətinin baş icraçı direktoru Karoli Matrai ilə görüşündə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi vurğulanıb. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın strateji rolundan bəhs edilib, bu xüsusda Cənub Qaz Dəhlizinin genişləndirilməsinin əhəmiyyətindən və Avropaya əlavə qaz həcmlərinin tədarükü ilə bağlı görülən işlərdən danışılıb.**

Görüş çərçivəsində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsinin, ötən ilin dekabrında Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in, habelə cari ilin aprel ayında "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistem operatorları və SOCAR arasında imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Həmçinin təbii qaz ticarəti, maye təbii qaz (LNG) təchizatı, qaz anbarlarının istifadəsi istiqamətlərində əməkdaşlıq perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda SOCAR ilə Macarıstanın ən böyük təbii qaz topdansatış şirkəti olan "MVM CEEnergy Zrt." arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə imzalanıb. Müqavilədə qeyd olunan qaz həcmlərinin tədarükünə cari ilin 4-cü rübündə başlanılması nəzərdə tutulur.

Yeri gəlmişkən, Azərbaycan–Macarıstan əlaqələri getdikcə genişlənir, iqtisadi sahədə yüksək nəticələr əldə edilir. Prezident İlham Əliyevin bu ölkəyə cari ilin yanvar ayında səfəri çərçivəsində imzalanan sənədlər də ikitərəfli əməkdaşlığın davamlı şəkildə möhkəmlənməsini şərtləndirir.

Dövlətimizin başçısı martın 6-da Macarıstanın iqtisadi inkişaf naziri Marton Nadı qəbul edərkən bu barədə ətraflı danışıb. Ölkə rəhbəri M.Nadının bu səfərinin əldə olunan razılığa əsasən gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaratdığını bildirib.

Həmin gün iqtisadiyyat naziri Mikayıl Cabbarovla Macarıstanın iqtisadi inkişaf naziri arasında keçirilən görüşdə də iki ölkə arasında energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə




əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait olduğu və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görüldüyü vurğulanıb.

Bütün bunlar onu göstərir ki, iki ölkə arasında siyasi-iqtisadi əlaqələr yüksək səviyyədədir, müxtəlif sahələr üzrə əməkdaşlıq münasibətləri strateji tərəfdaşlıq ruhunda inkişaf edir. Ümumiyyətlə, bu dost dövlət Azərbaycanın Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biridir.

Bu gün ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Geniş iqtisadi potensiala malik bu dövlətlərin iqtisadi əməkdaşlığının daha da genişlənməsində imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər əhəmiyyətli baza rolunu oynayır. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycanın isə dost ölkəyə18,1 milyon ABŞ dolları həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Son illər ərzində iki ölkə arasında ticarət əlaqələri də dinamik şəkildə genişlənib. Belə ki, 2021-ci ildə Azərbaycan ilə Macarıstan arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon ABŞ dolları təşkil edib. Ötən il isə bu göstərici 47,4 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Bununla da hesabat ilində əmtəə dövriyyəsi 2021-ci illə müqayisədə 34,81 faiz artıb.

Hazırda Macarıstan şirkətləri tərəfindən işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa-quruculuq işlərinə böyük maraq göstərilir, bununla bağlı ölkəmizə müvafiq layihələr təqdim edilir. Döst dövlət düşməndən təmizlənən torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir.

Macarıstan Azərbaycan ilə enerji sahəsində də əməkdaşlığa böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin oynadığı mühüm rolu daim təqdir edir. Bu ölkə Cənub Qaz Dəhlizi (CQD) layihəsini dəstəkləyir və ona qoşulmasının əhəmiyyətini yüksək dəyərləndirir.

Bütün bunlar onu göstərir ki, iqtisadi-geostrateji üstünlüklərdən səmərəli yararlanmaqla yüksək inkişaf mərhələsinə qədəm qoyan və Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycan Macarıstan ilə münasibətlərin inkişafına xüsusi önəm verir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Uğur formulu: güclü lider – qalib xalq

## Bu birlik bütün qələbələrimizin təminatçısıdır



**Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı və 44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını işğalçılardan təmizləməklə qəsbkarı diz çökdürdü. Beləliklə, 30 il ərzində aparılan danışıqlar prosesində işğalçı dövlətin reallaşdırmaq istədiyi məqsəd həyata keçmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planı tamamilə alt-üst oldu.**

Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistan kapitulyasiya tələblərinə uyğun olaraq, əvvəlcə Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə isə ölkəmizin əzəli və əbədi torpaqları olan Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, bu ərazilər bir mərmi belə atılmadan geri qaytarıldı. Şübhəsiz ki, hər üç rayonun qəsbkardan təmizlənməsi düşmənin öz istəyi ilə baş vermədi. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından öz silahlı qüvvələrini dərhal çıxarmasına dair Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi mövcud idi. Ermənistan həmin qətnamələrin tələblərinə dərhal əməl etməli və işğala birdəfəlik son qoymalı, işğal altındakı ərazilərimizi qeyd-şərtsiz boşaltmalı idi. Lakin düşmən ölkə bütün tələblərə zidd olaraq heç bir öhdəliyini yerinə yetirmədi. Əksinə, Ermənistanın baş naziri Azərbaycana qarşı 7 şərt irəli sürməkdən, ayrı-ayrı vaxtlarda "Artsax Ermənistandır, nöqtə" kimi təcavüz xarakterli şüarlar səsləndirməkdən, respublikamızın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasəti aparmaqdan, terrorçuları həmin bölgələrdə yerləşdirməkdən belə çəkinmədi. Beləliklə, qəsbkarın həyata keçirdiyi təxribatlar, hücumlar təcavüzkara əsl dərs verilməsinin zamanının gəldiyini aşkar şəkildə dünyaya göstərdi.

Bəli, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Vətən savaşında qələbəmizin əsasında möhtərəm dövlət başçımızın qətiyyəti, müdrik siyasəti, Silahlı Qüvvələrimizin güc-qüdrəti nə qədər mühüm əhəmiyyətə malik idisə, xalq-Prezident-ordu vəhdəti, birliyi də bir o qədər önəm daşıyırdı.

İkinci Qarabağ müharibəsi parlaq qələbəmizlə başa çatandan dərhal sonra işğaldan azad edilən ərazilərdə tikinti-quruculuq işlərinə başlandı. Dövlətimizin başçısının tapşırığı əsasında bu torpaqlardakı yaşayış sahələrinin bərpası zamanı ən son texnologiyalardan istifadəyə üstünlük verildi. Ölkə rəhbərinin Qarabağın dirçəldilməsinə başlanan ilk günlərdə "Qarabağı yenidən quracağıq və dünyaya yenidənqurmanın yaxşı nümunəsini nümayiş etdirəcəyik" söyləməsinə rəğmən rəqəmsallaşma, üçüncü Sənaye İnqilabının ən son nailiyyətləri diqqət mərkəzində saxlanıldı.

Prezident İlham Əliyev bir müddət bundan əvvə çıxışlarının birində bu barədə dedi: "İndi bu, həyata keçir. Biz şəhərlərimizi və kəndlərimizi smart texnologiya platformasına əsaslanaraq tikirik və yenidən qururuq. Ağalıda ilk kənd artıq məskunlaşdırılıb. Oraya gedən hər kəs Qarabağın yenidən qurulması modelinin necə olacağını görə bilər. Çünki bu, təkcə 30 il ərzində erməni işğalından əziyyət çəkmiş, layiqli həyat yaşamağa, tam qorunmağa layiq keçmiş məcburi köçkünlər qarşısında bizim mənəvi borcumuzun bir növ nümayişi olmamalıdır, həmçinin biz Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik".

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları hazırda müasir texnoloji təcrübə, eləcə də inzibati idarəçilik əsasında bərpa edilir, bu ərazilərdə ölkənin digər yerlərindən fərqli inzibati strukturlar fəaliyyət göstərir. Bununla bağlı işğaldan təmizlənən yaşayış sahələrində Prezidentin xüsusi nümayəndəlik institutu tərəfindən üç ərazidə artıq rəqəmsallaşma, texnoloji inkişaf və idarəçilik modelləri uğurla sınaqdan keçirilir.

Erməni faşizmi tərəfindən işğal dövründə dağıdılan, yerlə-yeksan edilən Qarabağ və ətraf ərazilərin bərpası istiqamətində gerçəkləşdirilən layihələr barədə fikirlərini bildirən dövlətimizin başçısı çıxışlarının birində misal olaraq Şuşada aparılan quruculuq işləri nəticəsində bu şəhərin sürətlə tarixiliklə müasirliyin qovuşduğu bir mədəniyyət paytaxtına çevrildiyini xatırladır və Azərbaycanın belə bir incisini işğalçının erməniləşdirilməyə cəhd göstərdiyini, lakin buna nail ola bilmədiyini söyləyir.

Yeri gəlmişkən, 2023-cü ildə qarşıya qoyulan əsas vəzifələrdən ən başlıcası düşməndən təmizlənən ərazilərin bərpası, Böyük Qayıdışın təmin edilməsidir. Ölkəmizin maliyyə imkanlarının ildən-ilə artması Qarabağın dirçəldilməsinə, o torpaqlarda iqtisadi fəaliyyətin canlandırılması üçün maliyyə xərclərinin daha da artırılmasına təminat verir.

Onu da xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və 2022-2026-cı illər üçün nəzərdə tutulan Sosial-İqtisadi İnkişaf Strategiyasında vurğulanan vəzifələr çərçivəsində maliyyələşdirilir. Müvafiq olaraq gələn il adı çəkilən strategiyaya əsasən, müəyyənləşdirilən məqsədlərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizlik hissəsinin düşməndən təmizlənən yaşayış sahələrində yenidənqurma və quruculuq işlərinin görülməsinə yönəldilməsi nəzərdə tutulur.

Sonda bir neçə gün bundan əvvəl baş verən qürurverici bir hadisəni də xatırlatmaq istərdik. Belə ki, Prezident İlham Əliyev Vətən savaşından sonra tarixi günləri, bayramları işğaldan azad edilmiş torpaqlarımızda qeyd edir. Bu il mayın 27-də Kəlbəcər və Laçın rayonlarında səfərdə olan Prezident İlham Əliyevin 28 May – Müstəqillik Gününü Laçın şəhərinə qayıdan əhali ildə birgə keçirməsi də bunun bariz ifadəsidir.

Dövlətimizin başçısı həmin mərasimdə bildirib ki, bu görüşün məhz 28 May tarixində təşkil edilməsinin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, istənilən nəticəni əldə etməyə qadirdir. Ağalı, Talış kəndlərinin ardınca Laçın şəhərinə qayıdış Böyük Qayıdış proqramının uğurlu icrasından və hədəflərə nail olmaq üçün bütün imkanların mövcudluğundan xəbər verir.

Onu da deyək ki, Prezident İlham Əliyev bərpa-quruculuq işlərinə başlandığı gündən Qarabağın və Şərqi Zəngəzurun cənnət məkana çevriləcəyini bildirmişdi. Artıq tarixi zəfərimizdən bizi ayıran 3 ilə yaxın qısa zaman kəsiyində görülən işlər bu fikrin yaxın gələcəkdə təsdiqlənəcəyindən xəbər verir.

Dövlətimizin başçısı Vətən savaşından ötən dövr ərzində işğaldan azad edilən rayonlara çoxsaylı səfərləri zamanı bir sıra strateji infrastruktur obyektləri işə salınıb, yenilərinin təməli qoyulub. Bununla da düşmənin darmadağın etdiyi, xarabalığa çevirdiyi şəhər və kəndlərimizə həyat yenidən qaytarılıb. Azadlığına qovuşan torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin sürəti getdikcə yüksəlib. Bununla da Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb. İllərdir düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu yurd yerlərimizə indi yeni nəfəs gəlib.

Bu, Prezident İlham Əliyevin mayın 27-də Kəlbəcər rayonuna səfəri zamanı da müşahidə olunub. Belə ki, Yanşaq və Zallar kəndlərinin, Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin və məktəb binasının təməlinin qoyulması, "Qamışlı" və "Meydan" kiçik su elektrik stansiyalarının, hərbi hospitalın istifadəyə verilməsi, Toğanalı-Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərin nəzərdən keçirilməsi, işğaldan azad edilən digər yaşayış sahələri kimi, bu rayonun da bərpasının diqqət mərkəzində saxlanılmasının təsdiqinə çevrilib.

Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı bu məsələ–Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı geniş bəhs edib. Dövlətimizin başçısı nitqində adıçəkilən şəhərin simasının dəyişməsinin iqtisadiyyatımızın dinamik inkişafından xəbər verdiyini, müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərdiyini vurğulayıb. Ölkə rəhbəri deyib: "Cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sakinlərin sərəncamına verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaq".

Bütün bunlar Laçın şəhərinin Baş planında da öz ifadəsini tapıb. Prezident İlham Əliyevə təqdim oluna həmin Baş planda nəzərdə tutulan tədbirlər və plana əsasən görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu – İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

***Müsahibimiz həmkarımızdır***

# Mənalı ömür yolu

**Bu il tanınmış publisist-ssenarist Rəfiqə Məsudun ölkənin mərkəzi mətbuatında yazılarla çıxış etməyə başlamasının 60 illiyi tamam olur. O bu əlamətdar hadisə ilə eyni vaxtda 60-cı sənədli filmini başa çatdırıb.**

Həmkarımız ilk gəncliyindən jurnalistikaya könül verib, onun hər çətinliyinə dözüb, 6 onillikdən sonra da yaradıcılıq yolunu eyni həvəs, çalışqanlıq və məsuliyyətlə davam etdirir. Rəfiqə xanımı jurnalistikaya nə ötəri həvəs gətirib, nə də şöhrət xatirinə gəlib. O, tale yazısı kimi sözə birdəfəlik könül verib. Onsuz nə gecəsi, nə də gündüzü; nə yayı, nə də qışı olub. Sözün ardınca eniş-yoxuşlardan, gədik-dolaylardan keçib. Yaradıcılığı ilə həmişə çevrəsində yenilik və gözəllik ab-havası yaratmağı bacarıb.

Rəfiqə Məsud jurnalist fəaliyyətinə qəzet-jurnallardan başlayıb. 1963-cü ildə Bakı Kitabxanaçılıq Texnikumunda əmək fəaliyyətinə başladığı vaxtdan ilk qələm təcrübələrini çap etdirib. "Azərbaycan gəncləri", "Bakı" – "Baku", "Sovet kəndi", "Azərbaycan qadını" kimi mərkəzi nəşrlərdə müxtəlif janrlı yazılarla çıxış edib. Sonra uzun illər teleradio readaksiyalarında çalışıb, aktual mövzulu çoxsaylı süjet və verilişlərin müəllifi olub. Müstəqillik dövründə isə həmkarımız sənədli filmlər yaradıcılığı ilə məşğul olub. Onunla söhbətə də elə bu məqamdan başladıq.

**– Rəfiqə xanım əvvəl qəzet-jurnallar, sonra teleradio və bir gün də sənədli filmlər. Necə oldu ki, bu sahədə fəaliyyəti seçdiniz?**

– Mənim gəncliyim ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərə düşüb. Bu illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə aparılan əfsanəvi quruculuq işlərindən bir jurnalist kimi məqalələr yazmaq, televiziya verilişləri, reportajlar hazırlamaq mənim də qismətimə düşüb.

Qarabağ hadisələri başlayanda çalışdığım Dövlət Teleradio Verilişləri Komitəsi ölkədə xalq hərəkatı ətrafında siyasi oyunların getdiyi əsas meydanlardan birinə çevrilmişdi. Ölkədə və teleradioda rəhbərlik tez-tez dəyişirdi. Bu da yaradıcı mühitə mənfi təsir etməyə bilməzdi. O zaman yeganə ümid yerimiz millət atası Heydər Əliyevin hakimiyyətə gəlməsi idi. Xalq üzünü ulu öndərə tutanda mən də onların sırasında idim.

Bu dövrdə Naxçıvanda yaşayıb Muxtar Respublikanı fəlakətdən qurtaran ulu öndərə edilən siyasi təzyiqlərə mən də bir jurnalist kimi dözə bilməyib haqq səsimi qaldırmışdım. "Xalqımızı Heydər Əliyevin zəkası, iradəsi xilas edə bilər" deyirdim. 45 dəqiqəlik verilişim efirdən çıxarıldıqdan sonra sevimli iş yerimi tərk etməli oldum. Bundan sonra hər yerdə ulu öndərin fəal təbliğatçısına çevrildim.

Xeyli sonra professor Nizami Xudiyev Azərbaycan Dövlət Teleradiosuna rəhbər təyin ediləndə məni geri çağırdı. Öz istəyimlə film yaradıcılığına keçdim, Azərbaycan Telefilm Yaradıcılıq Birliyində baş redaktorun müavini vəzifəsində çalışdım. Lakin qəzet və jurnallarla da sıx əlaqə saxladım.

Azərbaycan xalqının dövlət xadimləri, görkəmli elm, incəsənət, mədəniyyət adamaları, tarixi, ədət-ənənələri barədə 40 sənədli filmin müəllifiyəm. 2007-ci ildə Azərbaycan Televiziyasında təqaüdə çıxdıqdan sonra, 2008-ci ildə Mədəniyyət Nazirliyinə təqdim etdiyim Azərbaycanın Milli Qəhrəmanları layihəsi əsasında indiyə kimi "Salnamə" və "Yaddaş" studiyalarında daha 20 sənədli film ərsəyə gətirmişəm.

**– Təcrübəli ssenarist, 60 sənədli filmin yardıcısı kimi, sizin üçün kino, film yaradıcılığı nə deməkdir?**

– Yaxşı deyiblər, mən də təkrarlayım: kino musiqidir, kino teatrdır, kino ədəbiyyatdır. Bir sözlə, kino aləmdir. Sənədli kino qəzet yazısından, teleradio verilişindən qat-qat artıq bilik, bacarıq, sənətkarlıq, zəhmət tələb edir. Bir film aylarla davam edən, müxtəlif məkanlarda aparılan ağır yaradıcılıq prosesi nəticəsində hasilə gəlir.

Uğurlu kino üçün maraqlı, bitkin ssenari tələb olunur. Mən illər boyu bu həqiqətə əməl etməyə çalışmışam. Ona görə də rejissor və operatorlarla birgə işimiz həmişə uğurlu alınıb. Bəzən görürsən ki, ssenarisiz filmlər göstərilir. Tamaşaçı ekrandakı görüntülərin nə olduğunu necə anlasın?

Həcmindən asılı olmayaraq bütün sənədli filmlərin aydın, bitkin ssenarisi, səlis, parlaq dili olmalıdır. Filmin ssenarisi üçün mövzu da gərək tamaşaçı üçün maraqlı olsun. Mən vaxtilə coğrafiyaşünas akademik Həsən Əliyevdən müsahibələr, verilişlər hazırlamışam. Bir gün ona film çəkmək istəyimi bildirəndə etiraz etmədi. O zaman maneçilik törədildiyinə görə alimin sağlığında həmin filmi çəkə bilmədim. Telefilm Yaradıcılıq Birliyində işə başlayanda "Təbiətə bağlı ömür" adlı ilk filmimi Həsən müəllimə həsr etdim.

**– Hansı filmlərinizdən söz açmaq istərdiniz?**

– Mən bütün filmlərin ssenarisini eyni məsuliyyət, tələbkarlıqla qələmə almışam. Yaradıcı qrupu da özüm seçmişəm. Çəkilişlərdə də iştirak edirəm. Rejissorun müəllifin fikirlərinə nəsə əlavə etməyə ixtiyarı yoxdur. Film, ilk növbədə, mətndir, ideyadır, sözdür – təsvir isə bunları göstərmək üçündür. Filmlər ötəri təəssürat deyil, tarix üçün çəkilir.

"Dan ulduzu, tale ulduzu" adlı filmim Əməkdar incəsənət xadimi Gülarə Əliyevaya həsr olunub. "İlmələrdə yaşayan ömür" filmi məşhur xalçaçı Kamil Əliyev, "Vurğun ocağı" Xalq şairi Səməd Vurğun, "Bir ocağın nurunda" Abdulla Şaiq haqqındadır. Dünya şöhrətli bəstəkar Qara Qarayevə, xalq şairləri Mirvarid Dilbaziyə, Nəbi Xəzriyə, Nəriman Həsənzadəyə həsr olunmuş filmlərim də mənə çox əzizdir. Fidan və Xuraman Qasımovalar barədə film də maraqlıdır. Dünya Din Liderlərinin Bakı Sammiti barədə filmim Azərbaycan, rus, ingilis və ərəb dilində dünya ölkələrinə yayılıb. "Muğam", "Vokal", "Şəkidə toy" kimi sənədli filmlər də ekran xronikamızı zənginləşdirən əsərlərdir.



Milli Qəhrəmanlardan Asif Məhərrəmov, Elmar Edilov, Vəzir Orucov, Mübariz İbrahimov, Yuri Kovalyov, Koroğlu Rəhimov, Fazil Mehdiyev, Fərhad Hümbətov, Əli Məmmədov, Sərdar Səfərov, Nizami Məmmədov, Vüqar Hüseynov, Şuşanın azad olunmasında şəhid olmuş polkovnik-leytenant Ramiz Cəfərov və başqaları haqqında filmlər xalqımızın öyüncünü yüksəldən, yeni neslin vətən sevgisini alovlandıran ekran əsərləridir. Yaşımın bu çağına baxmayaraq əvvəlki həvəs və qüvvə ilə film yaradıcılığımı davam etdirirəm.

**– Siz bir sıra xeyirxah işlərinizdən əlavə, ustad jurnalist kimi təcrübənizi də yeni nəslə öyrətməyə vaxt tapmısınız.**

– İnsan olmağın mühüm bir şərti köməyə ehtiyacı olanlara əl tutmaq, zəiflərə təmənnasız kömək etməkdir. Mən də xeyirxahlığa heç vaxt biganə olmamışam. Xalq şairi Nəbi Xəzri bunları bildirəndən "Rəfiqə xanım" adlı şerində yazmışdı: "Aca da əl tutub qapı açmısan".

O ki qaldı təcrübəni öyrətməyə, bu da ciddi bir vətəndaşlıq borcudur. İctimai Siyasi Universitetdə jurnalist sənətkarlığı fənnindən dərs deməyim də belə bir tələbatdan irəli gəlib. Tələbələrimi ekranda görəndə, çıxışlarını eşidəndə, yazılarını oxuyanda çox sevinirəm və düşünürəm ki, onlara öyrətdiklərim, sənətkarlıq mühazirələrim hədər getməyib. Gənclərə həmişə təlqin etmişəm ki, mənəvi təmizliklərini qorusunlar, paxıllıqdan, xəbislikdən, naqislikdən uzaq olsunlar, daim çalışıb xalqa xeyir versinlər.

**Sonda qeyd edək ki, Rəfiqə xanım geniş ictimai fəaliyyətlə də məşğuldur.** Yeni Azərbaycan Partiyasının fəalı kimi çoxsaylı tədbirlər keçirdiyinə görə fəxri fərmanlar, təşəkkürnamələr alıb. Azərbaycan Respublikası Kinematoqraçılar İttifaqının, Yazıçılar və Jurnalistlər birliklərinin üzvü kimi çoxsahəli yaradıcılığı yorulmadan davam etdirir. Bütün bunlara vaxt tapmaq özü də bir məharətdir.

Sözə bağlı bir ömür yaşamış bu insan görüb-öyrədiyi, anlayıb-yəqin etdiyi gerçəkləri, bir sözlə, xalqımız üçün faydalı bildiyi hər şeyi təfəkkür süzgəcindən keçirərək, təxəyyülündə mənalandıraraq təsirli formalarda oxuculara, dinləyici və tamaşaçılara çatdırmağı həyatının mənası, yaradıcılığının qayəsi hesab edir. Onu uğurlara qovuşduran, tanıdan və çox sayda insana sevdirən də tutduğu bu yoldur. Mənalı ömür yolu!

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Qusarlı Mayıl müəllim

**Mən onunla “Xalq qəzeti”nin baş redaktorunun kabinetində tanış olmuşam. Əflatun müəllimin qarşısında gur, dümağ saçları olan, üz-gözündən saflıq, xeyirxahlıq yağan, səliqəli-sahmanlı bir şəxs əyləşmişdi. Arıq, hündürboy olduğu üçün yaşından xeyli cavan görünürdü. Kübar insan təsiri bağışlayırdı.**



Baş redaktor məni qonağa təqdim edərkən əslən qubalı olduğumu da qeyd etdi. Anladım ki, ilk dəfə gördüyüm bu ağsaqqal bizim tərəflərdəndir.

Qonaq ərklə əlini mənə uzatdı:

– Mayıl Bağırov!

Ani olaraq qarşımdakı şəxsin kim olduğunu yəqin etsəm də soruşdum:

– Qusarlı Mayıl müəllim?

– Bəli!

Hər üçümüz gülümsündük. Onun haqqında təcrübəli həmkarlarım Qüdrət Piriyev və İttifaq Mirzəbəylidən çox eşitmişdim. Onlar hər dəfə Qusardan söz düşəndə, orada Mayıl müəllim adlı dostlarının olduğunu fəxrlə söyləyir, onun çox vətənpərvər, dostcanlı və qonaqpərvər insan olduğunu mütləq qeyd edirdilər.

Qiyabi olsa da xəbərim vardı ki, Mayıl müəllim dahi siyasətçi Heydər Əliyevin böyük idarəçilik məktəbinin yetirmələrindəndir. O, bütün şüurlu həyatı boyu Azərbaycan və ləzgi xalqları arasında tarixi dostluq əlaqələrinin daha da güclənməsi üçün əlindən gələni əsirgəməyib. Bu münasibətlərdə nifaq yaratmaq istəyənlərə isə kəskin şəkildə sözünü deyib. Söyləyib ki, əti dırnaqdan ayırmaq olmaz, azərbaycanlılarla ləzgilər əsrlər boyu dost, qardaş olublar və bu dostluq əbədidir.

Qeyd etmək yerinə düşər ki, Mayıl müəllim hələ gənc yaşlarından jurnalistlərlə dostluq edən ziyalılardandır. Ara-sıra özü də qələmi əlinə alıb, görüb-müşahidə etdikləri barədə söz açır.

Bu dəfə “Xalq qəzeti”nə ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı yazı gətirmişdi. Baş redaktor müəllifin yanındaca məqalə ilə tanış olub qəzetin növbəti nömrəsində dərc olunması üçün göstəriş verdi.

Söhbət əsnasında o da məlum oldu ki, yaxın günlərdə qonağın yetmiş beş yaşı tamam olur. Həmin an baş redaktorun mənə tərəf boylanan baxışlarından nə demək istədiyini anladım. Yəni, bu dağdan ağır kişidən yazmaq lazım idi.

İki gündən sonra Mayıl müəllimlə vədələşdiyimiz yerdə -- Heydər Əliyev Sarayının qarşısında görüşdük. Söhbət edə-edə “Qış sarayı” parkına gəldik. Oradakı skamyaların birində oturub onun həyat və əmək fəaliyyətinə nəzər saldıq.

O, 1948-ci ildə Qusar rayonunun Urva kəndində anadan olub. 1964-cü ildə doğma kənddə orta məktəbi bitirib. Elə həmni il Gəncədəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olub. 1969-cu ildə gənc mütəxəssis kimi doğma kəndindəki “III Beynəlmiləl” sovxozunda əmək fəaliyyətinə başlayıb. Respublika Elmi-Tədqiqat Tərəvəzçilik İnstitutunda altı il elmi işçi kimi çalışıb. Sonra isə onu rayonun ən böyük toxumçuluq sovxozu olan “Partiyanın XXIII” qurultayı sovxozuna direktor təyin ediblər.

Gənc, enerjili direktorun rəhbərliyi ilə ilk gündən əvvəllər geridə qalan bu təsərrüfatın uğurları artmağa başlayıb. O, bir gün də olsun boş dayanmırdı. Rayon və respublika təşkilatlarına gedir, Urvada sosial-mədəni obyektlərin inşa edilməsinə nail olurdu. Onun səyləri sayəsində rayonda ilk dəfə Urvaya təbii qaz kəməri çəkilib, kənddə içməli su kəməri inşa edilib, hamam binası tikilib. Urvaya yeddi kilometr uzunluğunda asfalt yol çəkilib. Heyvandarlar üçün yaşayış binaları və kənd əhalisi üçün müxtəlif xidmət obyektləri tikilib istifadəyə verilib.

Düz yeddi il sovxoz direktoru vəzifəsində işləyib. O dövrün ictimai-siyasi həyatının tələblərini nəzərə alaraq, ikinci ali təhsil kimi politoloq ixtisasına da yiyələnib. Həm tələbkar, həm də qayğıkeş bir rəhbər olaraq kənd camaatının və sovxoz əməkçilərinin dərin hörmətini qazanib. Medal, orden veriləndə özündən çox başqalarını düşünüb. Çalışıb ki, hər kəsin əməyi layiqincə qiymətləndirilsin.

1987-ci ildə 39 yaşında onu Qusar rayon XD Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkiblər. Bu, əlbəttə, böyük etimad idi. Mayıl müəllim rayonun ikinci rəhbəri sayılan bu vəzifədə ləyaqətlə işləyib. Qusarda fərdi mənzil proqramı böyük uğurla həyata keçirilib. Rayonda və kəndlərdə minlərlə ailə fərdi torpaq sahələri və güzəştli kreditlərlə təmin olunub. Rayonda ehtiyacı olan elə bir ailə qalmayıb ki, fərdi ev tikmək üçün torpaq sahəsi ilə təmin olunmasın.

– Səmimiyyətimə inanın! Təkcə Qusar şəhərində beş yüzə yaxın gənc ailəyə həyətyanı torpaq sahəsi və yüzlərlə ailəyə yaşayış evi vermişəm, onlardan bir nəfərdən belə təmənnam olmayıb. Buna görə indinin özündə də çox qürurlanıram.

Əlbəttə, mən onun düz danışdığına əmin idim. Quba ilə Qusarın arası cəmi 12 kilometrdir. O ilərdə hamı danışırdı ki, Qusarda bir “ispalkom” var, nə torpağa, nə də maşına görə bir adamdan bir qəpik almır. Bəzi adamlar buna möcüzə kimi baxırdılar. Həmin möcüzə adam indi parkdakı skamyada mənim yanımda idi!

Qeyd edim ki, onun əmək fəaliyyəti təkcə Qusarla bağlı deyil. Belə ki, Mayıl müəllim 1992-ci illərin əvvəllərində Azərbayan Respublikası Nazirlər Kabinetinin Millətlərarası münasibətlər və qaçqınların işi şöbəsində 1-ci dərəcəli mütəxəssis və referent vəzifələrində çalışıb.

Məlumdur ki, həmin illərdə ölkənin ictimai-siyasi həyatında böyük gərginlik və narahatlıq hökm sürürdü. Ermənilər Qarabağın dağlıq hissəsində separatçılıq hərəkatına qoşulmuşdular. Onun doğma rayonu olan Qusarda isə “Sadval” çox fəallaşmışdı. Burda ermənilərin də “barmağı” vardı. Bütün bunları ifşa etmək, xalqa həqiqəti göstərmək lazım gəlirdi. O, Nazirlər Kabinetinin nümayəndəsi, həm də Qusardan olan bir vətənpərvər ziyalı kimi müntəzəm sürətdə doğma rayona gəlir, əhali ilə görüşür, dövlətin milli siyasətinin məğzini insanlara yorulmaq bilmədən izah və şərh edirdi.

**Mayıl müəllim o çətin günləri xatırlayıb köks ötürdü:**

– Həyat yoldaşım İradə xanım müəllim işləyirdi, hazırda təqaüdçüdür. Həmin dövrdə respublikada, eləcə də rayonda hökm sürən olduqca gərgin ictimai-siyasi şəraitdə mənim bir gün belə istirahət etmədən işləməyimi, bu zaman keçirdiyim hiss və həyəcanları müşahidə edərək bəzən deyirdi ki, “Mayıl, kaş sən də mənim kimi adi müəllim işləsəydin, biz hər gün bir yerdə məktəbə gedib, evə qayıdar, bu qədər əziyyətlər və həyacanlı anlar yaşamazdıq”. Amma o, buna görə peşman deyil. Nə edibsə, elinin-obasının əmin-amanlığı, ölkəsinin, rayon sakinlərinin rifahı, yaxşı günü üçün edib.

...Bir dəfə isə Nazirlər Kabinetində çalışdığı şöbənin müdiri, ehtiyatda olan general-polkovnik Ziya Yusifzadənin təklifi ilə Mayıl Bağırov təcili Gürcüstanın Laqodexi rayonuna ezam olunub. Burada azərbaycanlılar yaşayan, 20 min əhalisi olan Qabal sovetliyində gürcü millətçiləri etnik zəmində qarşıdurma yaratmışdılar. O, buradakı azərbaycanlı və gürcü əhali ilə görüşüb, hər iki icma qarşısında çıxışlar edib, onun təklifi ilə münaqişənin sakitləşdirilməsi üçün lazımi tədbirlər görülüb.

Mayıl müəllim xatırlayır ki, 1992-ci ilin may ayının əvvəlində isə erməni silahlı qüvvələrinin hücumuna məruz qalan Laçın rayonun əhalisinin Ağcabədi rayonundakı “Taxtakörpü” ərazisinə və digər rayonlara köçürülməsini təmin etmək məqsədilə Cəbrayıl rayonun Mahmudlu qəsəbəsində operativ qərargah yaradılıb. Nazirlər Kabinetinin nümayəndəsi kimi bu qərargahın işini əlaqələndirmək Mayıl müəllimə həvalə olunub. O, bu mühüm tapşıırığın da öhdəsindən gəlməyi bacarıb.

Mayıl Bağırov 1994-cü ilin aprelində yenidən doğma rayona qayıdaraq, Qusar RİH başçısının humanitar məsələlər üzrə müavini kimi öz əmək fəaliyyətini davam etdirib. Fəxrlə qeyd etdi ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında o, müstəqilliyin ilk illərində Qusarda Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, azərbaycançılıq ideyalarının həyata keçirilməsi istiqamətində əlindən gələni əsirgəməyib. YAP-ın Qusar rayon təşkilatının formalaşdırılması üçün ciddi səylər göstərib.

Mayıl müəllim indi təqaüddədir. Bəzən geridə qalan ömür yoluna nəzər salmağı, xatirələrə dalmağı sevir. Özünün dediyinə görə, onun ən böyük sərvəti sadə camaatın ona bəslədiyi dərin inam və hörmətdir. Onu saf, səmimi, gözütox insan kimi tanıyırlar.

– Bundan başqa, insana nə lazımdır ki?

O, məndən cavab gözləmədiyi bu sualı bir qədər ucadan, şəstlə, qürurla dedi. Fikirləşdim ki, onun buna mənəvi haqqı çatır!

O, çox təəssübkeş insandır, bu gün də ictimai-siyasi həyatında fəal iştirak edir. Bəzən sıravi vətəndaşlar ondan müxtəlif sahələrdə mövcüd olan problemlərin həllində onlara kömək üçün müraciət edirlər. Mayıl müəllim, əlbəttə, hər bir məsələnin müsbət və ədalətli həll olunmasına çalışır.

O, xoşbəxt bir ailə başçısıdır. Həyat yoldaşı İradə xanımla qırx ildən çoxdur ki, can bir qəlbdə yaşayırlar. Onların iki oğlu, bir qızı, altı nəvələri var. Övladları hazırda müxtəlif dövlət vəzifələrində çalışırlar.

Mayıl müəllim cəmi qırx il ömür sürmüş, lakin rayonda böyük-izzət sahibi olmuş atası Tağı kişi ilə necə qürur duyursa, övladları da bu nəslin davamçıları olaraq üzərlərinə düşən məsuliyyəti heç vaxt unutmurlar. Xoşbəxtlikdən onların hər yerdən xoş soraqları gəlir.

Onun həyatının ən kövrək anları isə gənc yaşlarında dul qalan, təkbaşına 10 övladını böyük ləyaqətlə böyüdən anası Anabacı xanımla bağlıdır:

– Anam çox dəyanətli qadın idi, heç vaxt üzləşdiyi çətinliklərdən şikayət etməzdi, bütün övladlarını ev-eşik sahibi etdi. Ahıl yaşında dünyasını dəyişdi. Ömrüm boyu anamın qulluğunda dayanmağa çalışmışam, amma bu gün də anamın övladlarına o böyük cəfakeşliyinə görə ruhu qarşısında baş əyməyi özümə borc bilirəm.

Mayıl müəllim anası barədə danışanda səsi titrəyir, az qalırdı ki, gözləri yaşarsın. Tez araya dəxli olmayan başqa bir mövzu qatmağa çalışdım. Öz-özümə düşündüm ki, ömrünü ləyaqətlə yaşayan, xalqına, dövlətinə sədaqətlə xidmət edən, hər kəsə həyan olmağı bacaran, var-dövlət və şan-şöhrət qarşısında əyilməyən bir ağsaqqalı, anası ilə xatirələri bu yaşında belə kövrəldə bilir.

*Məsaim ABDULLAYEV,*
*“Xalq qəzeti”*

# Məşğulluğa kömək inkişaf və rifah amilidir

**Baş nazirinin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin fəaliyyətinə dair növbəti respublika müşavirəsi keçirilib.**



Tədbirdə Koordinasiya komissiyası yanında İşçi qrupların rəhbərləri – əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev və məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin rəhbərləri iştirak ediblər.

Baş nazirin müavini Əli Əhmədov Prezident İlham Əliyevin 2017-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”ndakı tapşırıqların icrası istiqamətində fəaliyyətin davam etdirildiyini və əmək münasibətlərinin təkmilləşdirilməsi sahəsində bundan sonra da zəruri tədbirlərin həyata keçiriləcəyini qeyd edib. Bildirib ki, sərəncama əsasən yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının fəaliyyəti dövründə əmək müqaviləsi bildirişlərinin sayında 37 faizdən çox, fiziki şəxs fərdi sahibkarların sayında 59,5 faiz, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etmiş sabit vergi ödəyicilərinin sayında isə 6,3 dəfə artım olub. Eyni zamanda, bu sahədə əldə edilmiş naliliyyətlərin davamlılığını təmin etmək və qarşıda duran vəzifələrin həlli üçün məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin fəaliyyəti daha da təkmilləşdirilməlidir. Qeyd edilib ki, məşğulluğa kömək inkişaf və rifah amilidir.

Müşavirədə komissiyanın katibliyinin rəhbəri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdiri Rəşad Dayıyev ötən müşavirədə verilən tapşırıqlara uyğun olaraq məşğulluğa kömək göstərən əlaqələndirmə komitələri tərəfindən görülmüş işlərə dair təqdimatla çıxış edib.

Eyni zamanda, Qazax, Bərdə, Qəbələ rayonları və Mingəçevir şəhəri üzrə məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin rəhbərləri tapşırıqlar üzrə görülmüş işlər, o cümlədən qeyri-formal məşğulluğun qarşısının alınması və digər istiqamətlərdə həyata keçirilən tədbirlər barədə geniş məlumat veriblər.

Müşavirədə Ə.Əhmədov əlaqələndirmə komitələrinin səmərəli fəaliyyətinin təşkili məqsədilə həmin komitələrin rəhbərlərinə müvafiq tapşırıqlar verib.

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*

# DOST-da dostcasına dinləmə



**DOST Agentliyində “Dövlət sosial xidmətlərinin “bir pəncərə”dən təqdim edilməsinə dair maarifləndirmə və elektronlaşdırılması nəzərdə tutulan digər sosial xidmətlər” mövzusunda ictimai dinləmə və müzakirə keçirilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən aldığımız məlumatda bildirilir.**

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq təşkil olunan tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvləri və digər vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, mütəxəssis və ekspertlər iştirak ediblər.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tədbir iştirakçılarına DOST mərkəzlərinin fəaliyyəti barədə məlumat verib. DOST konsepsiyasının ölkəmizdə dövlət sosial xidmətlərinin “bir pəncərə”dən, operativ, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilməsinə şərait yaratdığı vurğulanıb.

Qeyd olunub ki, indiyədək 1 milyon 560 mindən çox vətəndaş DOST xidmətlərindən yararlanıb və bu xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,5 faizdir.

Tədbirdə DOST Agentliyinin bir çox beynəlxalq mükafat və sertifikatla təltif edildiyi bildirilib. DOST təcrübəsinin digər ölkələrdə tətbiqinin beynəlxalq qurumlar tərəfindən təşviq olunduğu və bir sıra ölkələrin bu təcrübəni tətbiq etməyə maraq göstərdiyi diqqətə çatdırılıb.

Daha sonra mövzuya dair müzakirələr aparılıb, tədbir iştirakçılarının rəy və təklifləri dinlənilib.

*Z.HÜSEYNOVA, “Xalq qəzeti”*

# Bakıda beynəlxalq onkoloji konfrans

**Dünən İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Onkologiya dövrlərin başlanğıcında” adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş videofilm nümayiş etdirilib.

İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, Milli Onkologiya Mərkəzinin baş boyun şişləri şöbəsinin aparıcı cərrah-onkoloqu, tibb elmləri doktoru, professor Əziz Əliyev konfransın əhəmiyyətindən danışıb.






Sonra Milli Onkologiya Mərkəzinin yaradılması ilə bağlı videoçarx nümayiş etdirilib.

Daha sonra professor Əziz Əliyev “Baş və boyun şişlərinin cərrahi müalicəsinə müasir yanaşma” mövzusunda məruzə ilə çıxış edib.

Konfransda Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzindən tibb elmləri namizədi Yusif Əliyarov, Cavid Qəribov, tibb elmləri namizədi Şəmistan Alıyev, tibb elmləri namizədi Elxan Kazımov, Əlövsət İsayev, tibb elmləri namizədi Günel Hacı və Rusiya Federasiyası Səhiyyə Nazirliyinin İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetindən tibb elmləri doktoru, professor Əli Mudunov, Tümen Dövlət Tibb Universitetinin rektoru, professor İvan Petrov, Tümen Dövlət Tibb Universitetinin professoru Rasim Təmrazov, dosent Yelena Qaysina, dosent Mariya Kuzmenko, dosent Anna Loqvinenko, Rusiya Elmlər Akademiyasının akademiki Andrey Vajenin, Rusiya Federasiyası Səhiyyə Nazirliyinin N.N.Bloxin adına Onkologiya MTTM-dən Polad Kərimov, A.S.Loginov adına Moskva Klinik Elmi-Təcrübə Mərkəzindən tibb elmləri doktoru, professor Arif Allahverdiyev, “Lapino” Klinik Hospitalının Xərçəng Mərkəzindən tibb elmləri doktoru Qöncə Allahverdiyeva, tibb elmləri namizədi Cənnət Çekini, tibb elmləri namizədi Vadim Qruzdev və başqaları çıxış ediblər.

Sonda mövzular ətrafında müzakirələr aparılıb.

# Türkiyənin tarixində yeni era başlayır

## Prezident Ərdoğan dövlətə və millətə sədaqət andı içdi

**Bu il oktyabrın 29-da yüz yaşı tamam olacaq Türkiyə Cümhuriyyətinin tarixində yeni eranın başlandığını görüb-müşahidə etməmək və bundan sonsuz qürur duymamaq qeyri-mümkündür. Dünən çağdaş zəmanəmizin ən xarizmatik və müdrik siyasətçilərindən olan Rəcəb Tayyib Ərdoğan yeni seçilən prezident kimi təntənəli surətdə dövlətə və millətə sədaqət andı içdi.**



Bu gün hər birimiz son dərəcə məmnunuq. Fakt budur ki, R.T.Ərdoğanın liderliyi ilə qardaş ölkə möhtəşəm “Türkiyə əsri” layihəsinin icrasına start verir. Ankara dünyanın ən böyük güc mərkəzlərindən birinə çevriləcək. Bu, hər bir Türkiyə vətəndaşı kimi, bütün türk dünyasını, eləcə də biz azərbaycanlıları son dərəcə sevindirir.

İndi isə son iki gündə Türkiyənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələri xronoloji qaydada xatırlatmaq yerinə düşər. Qeyd edək ki, mayın 14-də Türkiyədə parlament və prezident seçkiləri keçirilib. Hakim Ədalət və İnkişaf Partiyası qanunverici orqanda 268 deputatla təmsil olunacaq. Milliyyətçi Hərəkat Partiyası 50, Yenidən Rifah Partiyası 5, Yaşıl Sol Partiyası 61, Türkiyə İşçi Partiyası 4, Cümhuriyyət Xalq Partiyası (CHP) 169, İYİ Partiya 43 deputat yeri qazanıb.

Artıq ölkə parlamenti öz fəaliyyətinə başlayıb. Belə ki, iyunun 2-də iyirmi səkkizinci çağırış Türkiyə Böyük Millət Məclisinin (TBMM) yeni tərkibdə ilk iclası keçirilib. Toplantıya ən yaşlı deputat olan Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı sədrlik edib.

TBMM-in keçmiş sədri Mustafa Şəntop artıq səlahiyyətlərini D.Baxçalıya təhvil verib. Yeni spiker seçilənədək qanunverici orqana MHP sədri rəhbərlik edəcək. Türkiyə Prezidenti R.T.Ərdoğan iclasda iştirak edib. Toplantıda yeni seçilən deputatlar təntənəli surətdə and içiblər. TBMM-in ilk iclası yerli telekanallar vasitəsilə bütün dünyaya yayımlanıb.

Dünən TBMM-də Prezident R.T.Ərdoğanın andiçmə mərasimi olub. Ankaradakı Prezident sarayında əcnəbi qonaqlar qarşısında çıxış edən dövlət başçısı bildirib ki, bu il mayın 14-də ölkədə keçirilən ümumi seçkilər, mayın 28-də isə prezident seçkilərinin ikinci turu səsvermə hüququ olan vətəndaşların böyük əksəriyyətinin fəal iştirakı ilə baş tutub. Bununla da Türkiyə xalqı dünyaya bir daha sivil, demokratik inkişaf yoluna sədaqətini nümayiş etdirib.

Prezident R.T.Ərdoğan andiçmə mərasimindəki parlaq nitqində bildirib ki, ölkədə tam sərbəst, şəffaf şəraitdə keçirilən seçkilərin qalibi 85 milyonluq türk xalqıdır. Ölkə vətəndaşları hazırkı iqtidarın Türkiyənin sürətli inkişafı və milli intibahı naminə həyata keçirdiyi siyasi xətti birmənalı olaraq dəstəkləyir. Bu, əlbəttə, çox yüksək etimaddır və hakimiyyət öz üzərinə düşən məsuliyyəti yaxşı dərk edir.

R.T.Ərdoğan vurğulayıb ki, hazırda Türkiyə dövlətinin və xalqının qarşısında son dərəcə böyük hədəflər dayanır. Lakin heç kəs şübhə etmir ki, Türkiyə xalqı və iqtidarı əl-ələ verib bu vəzifələrin öhdəsindən uğurla gələcək. Türk xalqı ruhən güclü və yenilməz xalqdır. Heç bir daxili və xarici pozucu qüvvə Türkiyənin tərəqqisinin qarşısını ala bilməz.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Mübariz MƏMMƏDLİ,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**siyasi icmalçı**

Türkiyə Respublikasında mayın 28-də keçirilən prezident seçkilərinin ikinci turunda inamlı qələbəsi ilə möhtərəm Rəcəb Tayyib Ərdoğan yalnız Türkiyə türklərinə deyil, eləcə də bütün dünyanın türk və türkiyəsevərlərinə yaddaşlardan silinməyəcək, şərəf və iftixar dolu bir coşqu yaşatdı. Təqvimin 28 may tarixi Azərbaycan xalqı üçün son 105 il ərzində önəmli idi. İndi isə Türkiyənin seçki təntənəsi və bu seçkilərdə demokratiyanın qələbəsi 2023-cü ilin 28 may tarixini yeni dövrün - yeni türk əsrinin başlanğıcı kimi də təsdiq etdi. İstər Türkiyə Böyük Millət Məclisinin yeni tərkibi, istərsə də Cümhurbaşranı xalqın iradəsi əsasında seçildi. Türk xalqı və bütünlükdə Türkiyə bu dəfə də doğru, müdrik qərar verərək xarici imperialist mərkəzlərdə hazırlanan qara planların həyata keçməsinə imkan verməyəcəyini bir daha nümayiş etdirdi.

Heç şübhə yoxdur ki, bugünkü Türkiyə son 20 il ərzində öz inkişafında keyfiyyətcə yeni - daha üstün bir mərhələyə keçib. Qardaş ölkə Azərbaycanı çox sevən və Azərbaycanda da çox sevilən Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə dünya miqyasında söz sahibinə çevrilib.

Əslində 20 il dünya tarixi üçün qısa bir zaman məsafəsidir. Amma həmin illərə ötəri bir baxış kifayətdir ki, Türkiyənin hansı uğurları əldə etməsini görmək mümkün olsun. 2002-ci ildə keçirilən parlament seçkilərində R.T.Ərdoğanın başçılıq etdiyi Ədalət və İnkişaf Partiyası qələbə qazandıqdan sonra hər şeydən qabaq Türkiyənin istər siyasi, istər sosial, istərsə də iqtisadi həyatında hökm sürən böhranın qarşısını almağa başladı.

Ərdoğan qalib bir lider kimi, ağıl və zəkasını, bütün güc və qüdrətini ölkənin həm siyasi, həm də iqtisadi həyatında islahatlara, bütün sahələrdə inkişafa sərf etməyə başladı. Bu asan olmasa da, bütün gizli və aşkar çətinliklərdən sonra Türkiyəni hazırda dinamik inkişaf edən, vurduğu yerdən səs gətirən bir söz sahibinə çevirdi. Türkiyə Ərdoğanın rəhbərliyi ilə xarici borc bataqlığından qurtuldu, ölkənin iqtisadi, sosial, mədəni, təhsil və s. sahələrində aparılan ciddi islahatlar öz bəhrəsini verməyə başladı. Qazanılan uğurlar imperialist dairələri türk lideri ilə hesablaşmağa məcbur etdi.

Beləliklə, Ərdoğan bölgənin siyasi xəritəsini dəyişdirmək istəyənlərə heç bir imkan vermədi, Türkiyənin regional güc olduğunu dünya birliyinə sübut etdi. Hazırda Türkiyə regionda sülhün, sabitliyin, təhlükəsizliyin əsas qarantı qismində çıxış edir.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat və siyasi mərkəzidir. Dünya liderləri Ərdoğanın mövqeyi ilə razılaşır və ona böyük hörmət bəsləyirlər. Təkcə son vaxtlarda Türkiyənin və şəxsən Ərdoğanın iştirakı və dəstəyi ilə bir sıra regional və qlobal məsələlərin həllində ortaq məxrəcə gəlinərək razılaşmalar əldə olunmuşdur.

Azərbaycanla Türkiyə arasında bir qardaşlıq tarixinin olması hamıya bəllidir. Bu qardaşlıq tarixinin bünövrəsi Çanaqqalada qoyulub, Azərbaycan türkləri Osmanlı türklərinin haqq işində dil və din qardaşlarının yanında olub, onların istiqlalı uğrunda şəhid verərək vuruşub. Azərbaycanda Cümhuriyyət qurulandan sonra Osmanlı Qafqaz İslam Ordusu Azərbaycan türklərinin köməyinə çatıb, Gəncədən Bakıya qədər azadlıq, mücadilə yolu keçib və şəhidlər verib. Bu gün iki dövlətimizi təmsil edərək bir olan xalqımızın şəhidlərinin qanı ilə suvarılmış tarixi inkişaf yolunda Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanı bölgədə uzaq tutmaq istəyənlərin həvəsləri qursaqlarında qaldı".

Bu gün biz də möhtərəm Prezidentimizlə birlikdə "Əzmlə çalışaraq, yorulmayan bütün Ərdoğan sevdalıları"nı doğru zamanda doğru insanı seçdiklərinə görə ürəkdən təbrik edirik. Uğurlar sənə, əziz Türkiyə!

---

**Dörd gün əvvəl Avropa Siyasi Birliyinin Moldovanın Bulboaka kurort qəsəbəsində düzənlənən 2-ci Zirvə toplantısının gedişində Ermənistan baş naziri Nikol Paşinyanın Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşməsi barədə məlumatımız olmasa da, birincinin ikincinin ölkəsi ilə bağlı açıqlaması, bəlkə də, orada yaşanan ab-havanın təsirindən xəbər verirdi.**

Söhbət Hayastan liderinin “Ukraynadakı müharibədə Ermənistan Rusiyanın müttəfiqi deyil” bəyanatından gedir. Yəni, Nikol bu açıqlaması ilə Moskvaya İrəvanın bəzi məqamlarda onun yanında yer almayacağı mesajını ötürmüş oldu. Ukrayna və Ermənistanın dövlət başçılarının Rusiyanın xüsusi hərbi əməliyyatlara başladığı 2022-ci ilin fefralından sonra, ümumiyyətlə, eyni formatlı görüşlərə birgə qatıldıqlarını, həmin tədbirlərdə üz-üzə gəldiklərini xatırlamırıq.

# İrəvandan Moskvaya növbəti “sayğısızlıq”



Amma Paşinyanın məhz indiki məqamda belə “cürətli” bəyanat verməsi qətiyyən təsadüfi sayıla bilməz. Kremlin Hayastanın baş nazirinin bəyanatına reaksiyası özünü çox gözlətmədi. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun məsələyə münasibətini kifayət qədər maraqlı və əks-mesaj kimi qəbul etmək olar: “Bu, mühüm açıqlamadır. Rusiya Ukrayna ətrafındakı münaqişə ilə bağlı Ermənistanın mövqeyini nəzərə alır. Bilirik ki, Ermənistanın Ukrayna münaqişəsinə yanaşmasında müəyyən nüanslar var. Biz bunlardan xəbərdarıq və nəzərə alırıq. Amma bütün bunlara baxmayaraq, müttəfiqimiz olan Ermənistanla ikitərəfli münasibətləri inkişaf etdirməyə davam edirik”.

Birinci Qarabağ müharibəsində böyük güclərin köməyi ilə torpaqlarımızı işğal edən Ermənistan özünü Rusiyanın Cənubi Qafqazdakı forpostu kimi çox rahat və arxalı hiss edirdi. Fəqət iqtisadi və hərbi-siyasi cəhətdən Kremldən tam asılı vəziyyətdə olan İrəvanda iqtidara yeni qüvvələr gələndən, ələlxüsus da, 44 günlük müharibədə ağır məğlubiyyətdən sonra daxildə və xaricdə dip-balansı pozuldu.

1997-ci ildə bağladıqları ikitərəfli müqaviləyə əsasən bu ölkələr hərbi müttəfiqdir. Düzdür, İrəvan 2-ci Qarabağ müharibəsində Rusiyadan otuz il əvvəlki dəstəyi görmədi, amma silahla kifayət qədər təmin edildi. Onu da unutmamışıq ki, Vətən müharibəsinin 44 günü ərzində ermənipərəst Rusiya telekanallarında anti-Azərbaycan təbliğat özünün apogeyinə çatmışdı. Amma bu dəfə nə sovetdənqalma silah, nə də dez-təbliğat onların karına yetdi. Çünki dövran o dövran deyildi.

Nikol Paşinyan Ermənistanın Ukrayna məsələsində Rusiya Federasiyasının müttəfiqi olmadığını söyləməklə bir daha üzünü Qərbə çevirdiyini nümayiş etdirmiş oldu. Əslində həmin mesaj birbaşa “qoca qitə”dəki və okeanın o üzündəki güclərə hesablanmışdı.

İndi artıq “müsyölərdən” və “serlərdən” özünə müttəfiq və himayədar tutmaq istəyən İrəvanın pərdə arxasında hansı oyunlar çevirdiyini Moskva da yaxşı bilir. Kreml erməni ictimaiyyətində getdikcə güclənən antirus əhval-ruhiyyəsindən də xəbərsiz deyil.

İş qalır günahkarı cəzalandırmaq ssenarisinin işə salınmasına. Görünən odur ki, motivindən asılı olmayaraq, oynanılacaq siyasi dramın finalında Ermənistanın Rusiyanın təsir dairəsindən sağ-salamat çıxacağına ümidlər çox zəifdir.

***İ.HƏSƏNQALA,***
***“Xalq qəzeti”***

---

# Rusiya–Ukrayna müharibəsi: mövqe döyüşləri gedir

**Rusiya-Ukrayna müharibəsində döyüşlər davam edərkən ABŞ dövlət katibi Antoni Blinkendən yeni açıqlamalar gəlib. “Putinin Ukraynaya qarşı müharibəsi strateji uğursuzluqdur və gələcək illərdə Rusiyanın gücünü, maraqlarını və təsirini xeyli azaldacaq”, - deyə ABŞ rəsmisi bildirib.**

Onun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsində ABŞ öz müttəfiqləri və tərəfdaşları ilə Kiyev administrasiyasını dəstəkləyib: “Bu gün Rusiya hərbi, iqtisadi və geosiyasi baxımdan Ukraynanı işğal etməzdən əvvəl olduğundan daha pis vəziyyətdədir. Bu, bizim və tərəfdaşlarımızın şüurlu və qətiyyətlə qəbul etdiyi qərarların və Ukrayna xalqının cəsarəti və həmrəyliyinin nəticəsidir. Kreml tez-tez iddia edirdi ki, Rusiya ordusu dünyada ikincidir. Çoxları buna inanırdı. Bu gün tamamilə fərqli vəziyyət yaranıb. Texnikası, texnologiyası, rəhbərliyi, strategiyası, taktikası və əsgərlərinin mənəviyyatına görə indi biz görürük ki, o, Ukraynada belə ikincidir”.



Dövlət katibi qeyd edib ki, ukraynalılar öz gələcəklərini yazacaq və Rusiyanın təcavüzü onların əzmini artıracaq. Ukrayna suveren, müstəqil bir ölkədir!

O, bəzi ölkələrin yaxın aylarda atəşkəslə bağlı çağırışlar edəcəyini deyib: "Aydındır ki, bu, məntiqli, hətta cəlbedici səslənir. Axı, döyüşən tərəflərin silahı yerə qoymasını kim istəməz ki?"

Diplomat Rusiyanın təcavüzünə haqq qazandıran istənilən dinc təşəbbüsləri də kəsgin tənqid edib: “İstənilən gələcək təcavüzün qarşısını almaq və ondan müdafiə olunmaq iqdidarında olan güclü Ukraynanın olması vacibdir. Bu, diplomatiya və real sülh üçün ilkin şərtdir”.

Dövlət katibi Rusiyanın Ukraynaya qarşı müharibəsini “strateji uğursuzluq” adlandırıb. Onun sözlərinə görə, müharibə Rusiyanın illər sonrası üçün hərbi, iqtisadi və diplomatik gücünü və təsirini azaldıb.

Yeri gəlmişkən, hazırda Ukraynanın Baxmut şəhəri ətrafında döyüşlər davam edir. İki həftə əvvəl “Vaqner” özəl hərbi şirkətinin muzdluları bu şəhəri tamamilə tutduğunu elan etmişdi. İndi vaqnerçilər şəhəri tərk edir, onları Rusiya ordusunun bölmələri əvəz edir. Amma Ukrayna Silahlı Qüvvələri düşmənə sakit şəkildə rotasiya həyata keçirməyə imkan vermir.

Ukrayna Silahlı Qüvvələrinin Şərq Qüvvələri Qrupunun spikeri Sergey Çerevatı xatırladıb ki, Baxmutun işğalı zamanı “Vaqner”in itkiləri böyük olub: “Düşmən tərəf 20 min döyüşçüsünü itirib”.

Rusiyaya endirilən dron və artilleriya zərbələri fonunda bu ölkənin Ukrayna ilə sərhədə yaxın kəndlərinin 5 minə yaxın sakini evlərini tərk edib. Ən çox zərər çəkmiş Şebekinodan olan insanlar müvəqqəti yerlərə, o cümlədən Belqorod vilayətinin Starooskolski və Qubkinski rayonlarına yerləşdirilib.

Ukrayna tərəfi Rusiya ərazisinin atəşə tutulması ilə bağlı ittihamları rədd edir və bildirir ki, reydləri Rusiya Könüllülər Korpusu və Rusiya Federasiyası vətəndaşlarının döyüşdüyü “Rusiya Azadlığı” legionu həyata keçirir.

Bu arada rusiyalı hərbçilər Ukrayna ordusunun, xüsusən, işğal altındakı Zaporojye vilayətinin cənubundan hücuma keçəcəyindən ehtiyat edirlər. Bunun qarşısını almaq üçün həmin ərazidə əkin sahələrini su altında qoyurlar, suvarma kanallarının qapaqlarını açıb buraxırlar. Bu barədə Zaporojye Vilayət Hərbi Administrasiyasının rəhbəri Yuri Malaşko bildirib.

“Məsələn, onlar suvarma kanallarında su qapaqlarını açır və beləliklə də əkin sahələrini su altında qoyurlar. Yəni bizim bu və ya digər istiqamətdə hərəkət edə bilməməyimiz üçün hər şeyi edirlər”, – deyə o qeyd edib.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”***

---

# Kosovo serblərinin etirazları davam edir



**Metohiya vilayəti ərazisində yerləşən Zveçan şəhərində yaşayan serblər yenidən etiraz aksiyası keçirib. Xəbəri “Euronews” agentliyi yayıb.**

Etirazçılar Kosovonun xüsusi təyinatlı qüvvələrinin regiondan çıxarılmasını və yeni seçilən alban bələdiyyə sədrlərinin istefasını tələb edirlər. Nümayişlər Beynəlxalq Təhlükəsizlik Qüvvələrinin (KFOR) müşayiəti ilə keçirilib.

Mayın 26-da Kosovo polisi Metohiya vilayəti ərazisində yerləşən Zveçan, Zubin-Potok və Leposaviç bələdiyyələrinin binalarını nəzarətə götürdükdən sonra bölgədə vəziyyət gərginləşib. Seçkilərdə qələbə qazanan alban bələdiyyə sədrlərinin fəaliyyətini təmin etməyə çalışan polis əməkdaşları serblərin müqaviməti ilə qarşılaşıb. Baş verən toqquşmalarda 80-dən çox insan xəsarət alıb. KFOR hərbçilərindən də yaralananlar olub.

Serbiya Prezidenti Aleksandr Vuçiçin əmri ilə Serbiya Silahlı Qüvvələri yüksək hərbi hazırlıq vəziyyətinə gətirilib. Kosovonun Baş naziri Albin Kurti Belqradı iğtişaşların təşkilində günahlandırıb.

***“Xalq qəzeti”***

---

# Pilotsuz uçuş aparatı operatoru öldürüb

**ABŞ ordusu tərəfindən hazırlanmış, simulyasiya edilmiş sınaqda süni intellektlə idarə olunan Hərbi Hava Qüvvələrinə məxsus pilotsuz uçan aparat missiya səylərinə müdaxilənin qarşısını almaq üçün operatorunu öldürüb.**

Bu barədə "Guardian" nəşri xəbər yayıb. Qeyd edilir ki, insidentlə bağlı ilk məlumatı ABŞ Hərbi Hava Qüvvələrinin süni intellekt departamentinin rəhbəri Taker Hamilton verib.

Belə ki, ABŞ Hərbi Hava Qüvvələrinin süni intellektlə idarə olunan zərbə PUA-larının istifadəsi üzrə virtual təlim zamanı havaya qaldırılan PUA-ya nəyin bahasına olursa-olsun, şərti düşmənin hava hücumundan müdafiə sistemini məhv etmək tapşırığı verilib. Lakin süni intellektin idarə etdiyi aparat havaya qalxdıqdan sonra operator əvvəlki tapşırığı ləğv etməklə bağlı əmr verib. Bunu müdaxilə kimi qəbul edən süni intellekt tapşırığı yerinə yetirdikdən sonra geridönüş zamanı operator stansiyasını məhv edib. Nəticədə, süni intellekt bununla əsas tapşırığı yerinə yetirdiyini "düşünüb".

Eksperimental qırıcı sınaq pilotu Hamilton bununla da, süni intellektə həddən artıq güvənməmək xəbərdarlığı edib. O qeyd edib ki, bu nümunə etik məsələlərə məhəl qoyulmadığı təqdirdə, süni intellekt və maşın təlimindən danışmaq mümkün olmadığını göstərir.

Təlim-məşq missiyası zamanı heç kim xəsarət almayıb.

***Leyla SABİRQIZI,***
***“Xalq qəzeti”***

Mikayıl Müşfiq – 115

# Fələkdən kam almayan talesiz şair

## Və ya "37-ci il çovğunu"nun soldurduğu poeziya gülşəni



**Ötən əsrin 8-ci ilində, iyin ayının 5-də Bakıda anadan olan Mikayıl Müşfiq poeziya kəhkəşanında doğan parlaq ulduz kimi nur saçdı. Taleyin ona yazdığı qısa ömrü sevgi və gözəllik şairi kimi tanınması üçün kifayət etdi. Amma əgər Stalin repressiyasının qurbanı olmasaydı, daha çox yazıb-yaradacaq, dünya şöhrəti qazanacaqdı.**

Ata-anasını erkən itirən Mikayıl nənəsi Qızqayıt xanımın himayəsində böyüyüb boya-başa çatıb. Xalq yaradıcılığı örnəklərini dərindən bilib və elə buna görə də könlünü şeirə, sənətə verib. Azərbaycan Dövlət Darülfününun (indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti) dil və ədəbiyyat fakültəsini bitirib. 18 yaşında "Bir gün" adlı şeiri "Gənc işçi" qəzetində çap ediləndən sonra istedadlı şair kimi tanınıb və dövri mətbuatda müntəzəm çıxışlar edib. Adı çəkilən kimi onun "Yenə o bağ olaydı", "Oxu, tar", "Küləklər", "Ana", "Yağış" və nəğmələşərək dillər əzbəri olan bir sıra başqa şeirləri yada düşür. Güclü lirikası hər zaman şairə qarşı həsəd yaradıb. Sevgilisinin gülüşünü lalə yarpağında şehə bənzədən Müşfiqin şeir rüzgarı əsdikcə arzular gül açıb pardaxlanır, ruhlara işıq saçılır. Misraları, sanki, "rəqs eyləyən gur damlalar, sıra-sıra, inci-inci nur damlalardır":

**Rəssam, sevgilimin rəsmini gəl çək,**
**Sevgilim gözəldir, sən də gözəl çək.**
**Nazına çatanda fırçadan əl çək,**
**Qoy, onun nazını mən özüm çəkim...**

Təəssüf ki, "Dolaşma sıldırım sal qayalıqda, daşlar ayağını əzər, maralım!" – deyən şairin öz yolu sıldırım qayalıqlardan keçməli olub. Bədnəzər gözlərdən yayına bilməyib, "diksinə-diksinə qıya baxıb" və 29 yaşında güllələnib. Üzüqara zəmanə təbi qaynar bulaqlara bənzəyən sevgi və gözəllik şairinin ömrünü yarıda qırsa da, əbədi mənəvi həyat qazanıb. "Biz də muradımızca fələkdən kam alaydıq", – deyən Müşfiq nakam şair kimi ədəbiyyat tarixinə düşüb, əsərləri Azərbaycan poeziya xəzinəsinin inciləri sırasında yer alıb.

Onun yaradıcılığında sosial və mədəni məsələlərlə bağlı fikirlər də özünün parlaq ifadəsini tapıb. 1956-cı il mayın 23-də SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının qərarına əsasən, ölümündən sonra bəraət alıb. Dörd il əvvəl isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Müşfiqin əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

"Yazalım, özümüzü öyməyəlim, Füzuliyə dəyməyəlim", – deyən, könlünü ilahi misralarının şirinliyində ovudan, 115 yaşlı həmişəcavan şairin ruhunu şad etmək məramı ilə gözəl şeirlərindən birini oxucuların diqqətinə çatdırırıq.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

Mikayıl MÜŞFİQ

**SƏNİN GÜLÜŞLƏRİN**

**Qarşımda nazlanıb yenə gülürsən,**
**Bilsən gülüşlərin nəyə bənzəyir?**
**Mən desəm artıqdır, özün bilirsən,**
**Lalə yarpağında şehə bənzəyir.**

**Sənin gülüşlərin bir ruzgar kimi**
**Əsərkən arzumun gülü açılır.**
**Gülsə dodaqların ulduzlar kimi**
**Ruhuma bir sərin işıq saçılır.**

**Söylə, gözəllərin dodaqlarından,**
**Bu oynaq gülüşlər umulmuşdur?**
**Sənin hər qəhqəhən ay kənarından**
**Keçən buludmudur, uçan quşmudur?**

**Sənin gülüşlərin yaz səhərindən**
**Hissimə, fikrimə sanki rəng alır.**
**Gül ki, şeirlərim gülüşlərindən**
**Qırılmaq bilməyən bir ahəng alır.**

**Sən güldüyün zaman bu şad günümdə**
**Açılır qarşımda, canlanır bahar.**
**Bəzən başucumda, bəzən önümdə**
**Şimşəklərim çaxar, sularım axar.**

**Cahan ki solmayan bir bağça-bağdır,**
**Burda rəvamıdır gülmədən ölmək!**
**Yazıq o şəxsə ki, qaraqabaqdır,**
**Nə qədər yaraşır insana gülmək!**

# Süni intellekt yalan da danışa bilər

**ChatGPT chatbotunu idarə edən süni intellekt işəgötürəni razı salmaq üçün yalan danışa bilər.**



Bu fikri Pensilvaniya Universitetinin Uorton Biznes Məktəbinin professoru Ethan Mollik deyib.

Onun sözlərinə görə, süni intellekt (AI) insana bir sıra işlərdə, o cümlədən elektron məktubların yazılmasında kömək edə bilər. Lakin təcrübəçilərdə olduğu kimi, AI-nin də qənaətbəxş nəticələr əldə etməsi üçün insanlara ehtiyacı var: "Süni intellekt qüsursuz ola bilməz, insan ona kömək etməlidir".

Professor onu da qeyd edib ki, tələbələrindən ChatGPT-dən istifadə etməyi tələb edir ki, onlar onun üstünlüyünü başa düşə bilsinlər.

*L.AZAD,*
*"Xalq qəzeti"*

Nəriman Zeynalov – 90

**Fədakar mətbuat tarixçisi kimi yaddaşlarda yaşayan Nəriman Zeynalov həm təhsil aldığı universitetin jurnalistika fakültəsinin müəllimi, həm də "Xalq qəzeti"ndə (o zamankı "Kommunist" qəzeti) ədəbi işçi, şöbə müdiri vəzifələrində nümunəvi fəaliyyəti ilə seçilib. Müəllim adı, jurnalist imzası, alim zəhmətkeşliyi onu daim fərqləndirib.**



# Çağdaş jurnalistlərin unudulmaz müəllimi

"Molla Nəsrəddin" jurnalının tarixi ilə bağlı 1967-ci ildə namizədlik, 1988-ci ildə isə doktorluq dissertasiyaları müdafiə etmiş Nəriman müəllim Azərbaycanın mətbuat tarixi ilə bağlı 2 cildlik dərsliyin də müəllifi olub. Peşəkar fəiliyyətində jurnalistikanın nəzəri və praktik sahələrinə paralel surətdə diqqət ayırıb. O, 1977-ci ildən başlayaraq 10 ilə qədər "Sovet kəndi" qəzetinə redaktorluq edib. Ömrünün son illərində doğma jurnalistika fakültəsinə qayıdaraq dekan seçilib.1989-cu ilin yazında, 56 yaşında dünyasını dəyişib.

Nəriman Zeynalov istedadlı publisist, gənc yazarlar üçün ustada çevrilmiş bir qələm sahibi idi. 1971-ci ildə oçerkləri "Qızıl qələm" mükafatına layiq görülüb. "Gümüş dəstəkli qılınc" romanının, "Oğul o kəsdir ki", "Dağlar oğlu", "Bərəkətli torpaq" oçerklər kitablarının müəllifi olub. Dövri mətbuatdakı bir çox hekayə və məqalələri hələ də yaddaşlardadır.

Unudulmaz insan, qayğıkeş müəllim olan Nəriman Zeynalov neçə-neçə gənc jurnalistin yetişməsinə, püxtələşməsinə zəhmət sərf edib. Onların çoxu bugünün ünlü qələm sahibləridir. Elə ustadın 90 illiyi ərəfəsində onların ikisindən – tanınmış şair, tərcüməçi, publisist, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli və jurnalist, tarix üzrə fəlsəfə doktoru Amalya Qasımovadan onun haqqında ürək sözlərini söyləmələrini xahiş etdik.

**Vaqif Bəhmənli:**

– Peşəkar jurnalistikaya atdığımız ilk və sonrakı addımlar boyu Nəriman müəllimin şəxsində qismətimizə düşən təmaslar, görüşlər, ustad-tələbə münasibətlərinin təsviri romana sığmaz.

...1973-cü ilin sentyabrın ilk həftələrində səhər-səhər qrupumuz jurnalistika fakültəsinin ayrıca, birmərtəbəli binasının küçəyə baxan auditoriyasında yerləşmişdi. Balaca dərs otağı işıqlı idi. O gəldi, 35-40 yaşlarında, son dərəcə zövqlə geyinmiş cavan müəllim içəri girəndə mənə elə gəldi ki, auditoriyadakı işıq bir az da çoxaldı. Nəriman Zeynalovla ilk tanışlıq günündən 50 il ötüb keçsə də, onun şəxsən mənə əta etdiyi o nur, o yaradıcı ruh bir an belə olsun duyğu və düşüncəmi, yaddaşımı tərk etməyib, zərrəcə şübhə olmasın, nə qədər canımda can var, nəfəsim gedib-gəlir, belə də olacaq. Təbii ki, bu sayaq düşünən yalnız mən deyiləm.

Nəriman Zeynalov ustad müəllim idi. O bizə milli mətbuatımızın tarixini öyrədirdi. Gözümüzün önündə Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyli... kimi dahi şəxsiyyətlərin simasını canlandırır, onların məramını, Azərbaycan sevdasını anladır, "Əkinçi", "Molla Nəsrəddin" jurnalının qeyrət, namus, elm qoxuyan, solmayan, tarixi səhifələrini vərəqləyirdi. Nəriman Zeynalovun dərslərindəki pedaqoji səmimiyyət, klassik irsə sonsuz ehtiram onunla nəticələnirdi ki, biz tarixiliklə müasirliyi iç-içə, qaynayıb qovuşmuş halda dərd edirdik. Onun təfsirində mətbuatın keçmişdəki təcrübəsi yalnız tarix deyil, eyni zamanda, müasir jurnalistika üçün yaradıcılıq mənbəyi, stimul, publisistik metod idi. Etiraf edək, hər müəllimdə belə alınmır...

Onun dərsləri monoloq deyil, canlı dialoq üstündə qurulurdu. Bir dəfə sadə bir məsələ qoydu: Yazılan məqalənin adı nə zaman qoyulsa yaxşıdı, yazıya başlamazdan əvvəl, yoxsa, yazını bitirəndən sonra? Hərəmiz bir söz dedik, mübahisə uzun sürdü. Nəriman müəllim məsələni yekunlaşdırdı, adın əvvəl, yaxud sonra qoyulmağı elə də fərq eləməz, təki, uşaq sağlam doğulsun. Sonra biz "Sovet kəndi" qəzetində onun rəhbərliyi altında coşqun yaradıcılığa başlayanda Nəriman müəllimin parlaq redaktor qələmi məqalələrin üstünə elə uyğun adlar, rubrikalar çıxarırdı ki, onlar mətbu prosesdə yenilik kimi qəbul edilir, digər qəzetlər, müəlliflər tərəfindən də davam olunurdu.

Nəriman Zeynalov indi həyatda olmasa da, 90 yaşa həyatda varmış kimi və şərəflə yetişən ustad jurnalist milli mətbuatımıza məxsus olduqca dəyərli irsdir.

Məhz o, ötən əsrin 70-80-ci illərində mahiyyətcə puç sovet jurnalistikasından 80 il geridə, mətbuat tariximizdə qaynaqlanan mənbələri öz dövrünün mətbuat axarına qovuşdurmaq istəyən, həm nəzəri, həm təcrübi, həm də təşkilati baxımdan belə bir prinsipial əlaqənin yaranması uğrunda mücadilə aparan mətbuat xadimi olmuşdur və var!

**Amalya Qasımova:**

– Nəriman Zeynalov fakültəmizin sayılıb seçilən müəllimlərindən idi. Sadə və səmimi olması, tələbələrlə dostyana davranışı onu hamımızın sevimlisinə çevirmişdi. Tədris etdiyi kurs jurnalistika fakültəsinin aparıcı fənlərindən hesab olunurdu. Hətta Azərbaycan mətbuatına dair ilk dərsliyi də o yazmışdı və iki cildlik göy üzlü "Azərbaycan mətbuatı" tarixi əlimizdən düşməzdi.

Ərəb əlifbasını orta məktəbdə öyrənmişdim. Amma, 1-ci kursda da bizə bu əlifbanı tədris etmişdilər. Bunu ona görə xatırladım ki, Azərbaycan mətbuatının əsil nüsxələri ilə tanışlıq bu əlifbanı bilmədən mümkün deyildi.

Bir gün Nəriman müəllim mətbuat tarixinə marağımı hiss edib mənə M.F. Axundov adına Pespublika kitabxanasında mövcud olan ilk qadın qəzeti "İşıq"dan bir yazını kiril əlifbası ilə köçürüb ona gətirməyimi tapşırmışdı. Bilmirəm o mənim bu işi nə səviyyədə yerinə yetirəcəyimi yoxlayırdı, ya yazı onun özünə lazım idimi. Amma, bu kiçik öhdəliyi yerinə yetirməyim mənim gələcək elmi fəaliyyətimin istiqamətinə çevrildi.

Bu, həm də Nəriman müəllim tərəfindən jurnalistika fakültəsi mətbuat tarixi fənninin o zaman mövcud olan Proqramına əks olan bir dəyişiklik idi. Çünki bu proqramda "Burjua mətbuatı" başlıqlı bir bölmə var idi ki, " Həyat"," Fyüzat", "Səda" və digər mətbu orqanlarla yanaşı, ilk qadın qəzetimiz "İşıq" da buraya daxil edilmişdi. Biz Azərbaycanda qadın mətbuatının tarixini sovetlər dövründə nəşr edilən "Şərq qadını" jurnalı kimi öyrənirdik.

"İşıq" Nəriman müəllimin tövsiyəsi ilə mənim elmi yaradıcılığıma əsl işıq oldu. Tələbə elmi işimdən sonra bu mövzunu davam etdirdim və AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunda "XİX əsrin sonu- XX əsrin əvvəllərində şimali Azərbaycan mətbuatında qadın problemləri (1901-1917)" adlı geniş elmi iş ərsəyə gəldi. Ona görə də "Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti" adlı təbliğat xarakterli kitabımda "Sevimli müəllimim Nəriman Zeynalovun əziz xatirəsinə" sözlərini böyük minnətdarlıq hissi ilə yazdım. Öyrədənlər, bilik bəxş edənlər müqəddəs insanlardır. Onlarin yeri qəlbimizdədir.

*Hazırladı: Ə.ƏLİYEV,*
*"Xalq qəzeti"*

# Poeziyamızın danışan dili

## Onun səsi yağ kimi yumşaq, bal kimi şirindir



**Ona de ki, xoşbəxtəm,**
**yalan danış adımdan.**
**De ki, əsər qalmayıb**
**Sən gördüyün adamdan.**

Bədii qiraət ustası Ağalar Bayramovun o şeiri nə vaxt, hansı tədbirdə səsləndirdiyini xatırlamasaq da, misraların avazında duyğuların pərvazlanması yaxşı yadımızdadır. Tamaşaçılarla dolu salona dərin bir sükut çökmüşdü. "Könül quşu"nun qanadlarında sirli bir səyahət başlamışdı.

Ağalar Bayramov isə ötürdü. Səsində ovundurucu bir təskinlik vardı. Bu təskinlik isə başqasını yaşatmaq üçün yanan bir insan ürəyinin hökmünün səs tellərində ifadəsi idi...

Əvvəlki onilliklərdə bədii qiraət ustaları ilə görüşlər çox keçirilərdi. Kazım Ziya, Müxlis Cənizadə, Soltan Nəcəfov, Əli Zeynalov, Əminə Yusifqızı, Mikayıl Mirzə, Həsən Əbluc kimi sənətkarlar teleekranlarda, səhnələrdə sözün rəngini səslə cilvələndirər, bizə ədəbiyyatı, poeziyanı sevdirərdilər. Bu sirdən-sehirdən çıxa bilməzdik. İndi qiraət ustaları az olsa da, çıxışlarını sevə-sevə dinləyirik. Ağalar Bayramov bu sırada birincilərdəndir. Dilçi-alim, professor Tofiq Hacıyev Ağalar Bayramovun sənətini özünəməxsus tərzdə dəyərləndirib: "Təbii ki, xəmiri, çörəyi dada gətirən duzdur. Dilin də, danışığın da ürəyə yatması, zövqü oxşaması ifaçının, söz sahibinin bəlağətindəki duzdan asılıdır. Bu gün yazıçı, şair, artist, müğənni bolluğunda usta qiraətçi azlığı aşkar görünür. Bu az olan sənətkarların içərisində əməkdar artist Ağalar Bayramov öz ifasının duzu ilə seçilir. Onun səs tembri bir ilahi vergidir. İfasının bütün dadı-duzu onun içindədir".

Hazırda dosent kimi çalışdığı İncəsənət Universitetini fərqlənmə diplomu ilə bitirib. Düz 40 ildir ki, ürəkləri fəth edir, gözəlliyə, yaxşılığa kökləyir. Elə bir söz sərrafıdır ki, ifaları sonsuza qədər dərinə nüfuz edir, özününküləşir, doğmalaşır. Aktyorluq da edir, rejissorluq da. Amma bədii qiraəti hamısından üstün tutur, səsinin qüdrəti ilə sözün urvatını artırır.

Ağalar Bayramovun ifaları ona görə təsirli, valehedicidir ki, hər şeiri əzbərləyib səhnəyə çıxmır. İlk növbədə özünün yüksək zövqünü oxşayan, duyğu və düşüncələrinə hakim kəsilən nümunələri seçib təqdim edir. Söz sərrafı səsləndirdiyi şeirlərin hər kəlməsini, misraları sanki əvvəlcə özünün canına, qanına hopdurub, söz xəzinəsi düzəldir, sonra böyük ustalıqla ipə-sapa düzür. Ecazkar səsi ilə sanki möcüzə yaradır. Sözə yeni can verir, nəfəs gətirir, həyat bəxş edir. Böyük Məmməd Arazın "Ya rəbbim, bu dünya sən quran deyil, Fəzada yerini dəyiş dünyanın...", "Götür gözlərimi, dörd gözün olsun, Ağlama, qorxuram göz yaşlarından", Əli Kərimin "Qayıt, gözüm nuru, könlüm atəşi, Qayıt, sahmana sal bu kainatı", Cabir Novruzun isə "Bu dünyamı dəyişirəm səni unutmaqdan ötrü, Ölümə elçi düşürəm səni unutmaqdan ötrü..." misralarındakı məna yükü uzun müddət dinləyicinin qəlbinə hakim kəsilir.

Bədii qiraət ustasının məharətlə təqdim etdiyi söz bəzən ürəklərdə, beyinlərdə ən güclü tufan belə qoparmağa qadirdir. Vətən ətirli şeirlərini səsləndirərkən sanki od püskürür, alov saçır. "Ayağa dur Azərbaycan", "Məndən ötdü", "Azərbaycan dünyam mənim", "Vətən" və digər şeirlərdəki Vətən, yurd sevgisini dinləyiciyə sirayət etdirir. Onun ifasında şair Ramiz Qusarçaylının:

**"Sənsən Azadlıq eşqim,**
**sənsən Hürr, – deyəcəyəm,**
**Ən son nəfəsimdə də**
**sənə şeir deyəcəyəm,**
**Şuşada sən qonduğun**
**daşa pir deyəcəyəm,**
**Çəkəcəyəm gözümə**
**kölgən düşən torpağı**
**Azərbaycan bayrağı!"**

– misraları səslənərkən bu odu, alovu, yanğını daha dərindən duyursan.

...Bu da bir tale gərdişidir ki. Ağalar müəllimin oğlu 1991-ci ildə Qubadlıda faciəvi şəkildə dünyasını dəyişib və o vaxt elə orada da dəfn edilib. Qarabağı, o cümlədən də Qubadlını mənfur qonşular işğal etdikdən sonra, 2020-ci ilin Zəfər Yürüşünə qədər – düz 28 il balasının məzarını ziyarət edə bilməyib. Ürək dağlayan həzin görüş zamanı isə deyib: "Dur, oğlum, dur, "namərd" atan 28 ildən sonra görüşünə gəlib. Dur, səsimə səs ver, Şəhriyar! Sənə görə 3 min şəhid balamız canından keçib..." – Bax, belə kövrək və həssas bir insandır Ağalar müəllim.

Bu yaxınlarda Ağalar Bayramov Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin Rəsul Rza mükafatına layiq görülüb.

Çağdaş poeziyamızın görkəmli nümayəndəsi, doğma Kəlbəcərin həsrətinə dözə bilməyərək dünyadan köçmüş Məmməd Aslan Ağalar Bayramova qulaq asanda "Bu səs yurd həsrətinə od vuran səsdir" - deyib

Şair Ayaz Arabaçı ona həsr etdiyi şeirində deyir:

**Ruhum yenə Ağaların səsində,**
**Ağrı dağı gəzdi desəm, inanın.**
**Mən bu səsə Çıraqqala, Əlincə,**
**Mən bu səsə Bəzzdi desəm, inanın.**

**Arzu olub birnəfəsə çatmışıq,**
**Neçə-neçə şirin vədlər dadmışıq.**
**Çox təamlar, çox nemətlər dadmışıq,**
**Bu səs ayrı həzzdi desəm, inanın.**

İnanırıq, şair, çoxdan inanırıq.

*Leyla QURBANOVA,*
*N.ƏLİ,*
*"Xalq qəzeti"*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 117 (30233) 4 iyun 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Son beş mövsümün rekordu



**Futbol üzrə Azərbaycan kuboku yarışlarında son beş mövsümün rekordu müəyyənləşib.**

Futbol üzrə Azərbaycan kuboku yarışlarının 2022-2023-cü il mövsümündə 50 qol vurulub ki, bu, son beş turnir üçün mütləq rekorddur.

Sonuncu dəfə daha çox qolun vurulması 2017-2018-ci il mövsümündə qeydə alınıb (67 qol).

2018-2019-cu il mövsümündə 39, sonrakı yarışda 30, 2020-2021-ci il mövsümündə 40, ötən kubok turnirində isə 48 qol vurulub.

## Qadın güləşçimizin bürüncü



**Qadın güləşçimiz Jalə Əliyeva (57 kq) Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən reytinq turnirində üçüncü yeri tutub.**

Azərbaycan təmsilçisi həlledici mərhələdə türkiyəli Elvira Kamaloğluna 8:4 hesabı ilə qalib gələrək bürünc medala sahib olub.

Komandamızın üzvlərindən 62 kq-da yer alan Elis Manolova isə ilk mərhələdə özbəkistanlı Dilfuza Aimbetovaya "tuş"la qalib gəlsə də, 1/4 finalda almaniyalı Luisa Niemeşlə bacarmayıb - 1:2.

## Azərbaycan kubokunu "Qəbələ" qazandı

**Futbol üzrə Azərbaycan kuboku yarışlarının qalibi müəyyənləşib.**

Final oyununda "Neftçi" və "Qəbələ" komandaları üz-üzə gəliblər. "Bakcell Arena"da oynanılan matçda "Qəbələ" komandası qələbə qazanıb.

Oyunu baş hakim İnqilab Məmmədov idarə edib.

*Leyla QURBANOVA, "Xalq qəzeti"*




*Texnologiya yenilikləri*

## İlon Mask "Twitter"in adını dəyişir

**Amerikalı milyarder İlon Mask sahibi olduğu "Twitter" sosial şəbəkəsinin rebrendini (yeni brendini – müəllif) təsdiqləyib. Bu barədə "Amerikanın səsi radiosu məlumat yayıb.**




Xəbərdə qeyd edilir ki, bu günlərdə İlon Mask "Twitter" sosial şəbəkəsini rebrendinq etmək planlarını təsdiqləyib. Belə ki, o, "Twitter"in hazırkı adının və mavi quş loqosunun "X" hərfi ilə əvəz oluna biləcəyini iddia edən sənədə imza atıb.

Xatırladaq ki, 1971-ci ildə Pretoridə (Cənubi Afrika Respublikası) doğulan, gənc yaşlarında ABŞ-a köçən İlon Mask dünyanın ən uğurlu iş adamlarından biridir. Onun varidatının 270 milyarddan çox olduğu iddia olunur. İ.Mask modern texnologiyalar biznesində maraqlı təşəbbüsləri ilə ad çıxarıb.

*"Xalq qəzeti"*

## Süni zəka işsizliyə aparırmı?

**Son zamanlar İT mütəxəssisləri süni intellekt sistemlərinin inkişafının əmək bazarını tamamilə dəyişəcəyini vurğulayırlar. İşçi qüvvəsinin yerini artıq intellektual sistemlər və texnoloji maşınlar alır.**

Şirkətlər bununla bağlı müxtəlif hesabatlar təqdim edirlər. Bu cür rəylərin birini də "Challenger" və "Gray & Christmas" adlı şirkətlər hazırlayıblar. Belə ki, onların statistik məlumatlarına görə, may ayında süni intellekt 4 minə yaxın insanın işdən çıxarılmasına səbəb olub. Xəbəri "msn.com" saytı verib.



Analitiklər qeyd ediblər ki, bunun əsas səbəbi şirkətlərin süni intellekt texnologiyasını öz iş proseslərinə inteqrasiya etmələridir. Həmçinin proqnozlara əsasən, süni zəka ilə bağlı əmək bazarının həcmi gələcəkdə 1,3 trilyon dollara çatacaq. Onların fikrincə, 2035-ci ilə qədər isə süni intellekt sistemlərinin yayılması 300 milyon iş yerinin ixtisar olunmasına səbəb olacaq.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## Deyin görüm, sülhün sizə nə ziyanı var?



**"Facebook"da dostluğumda olan Jalə Əhmədova adlı bir ziyalı xanım dünən öz paylaşımında bu fotonu yerləşdirərək körpə qızcığazın adından belə yazıb:**

"Deyin görüm, sülhün sizə nə ziyanı var?"

Çox sayda sosial şəbəkə izləyiciləri bu təsirli sözlərə biganə qalmayıblar. Onlardan biri yazıb ki, müharibə böyük bir biznesdir, məhz bu səbəbdən sülhün düşmənləri öz bəd əməllərini davam etdirə bilirlər.

Təbii ki, bu körpə balamızın müharibələrin sərvət, var-dövlət əldə keçirmək, yeni torpaqlar işğal etmək naminə aparıldığından xəbəri yoxdur. O, bütün bunları böyüyəndən sonra anlayacaq.

Ümid etmək istərdik ki, bu gün Suriyada, Ukraynada, Sudanda müharibə alovunu körükləyənlər, eləcə də Qarabağı yenidən qan çanağına döndərmək istəyənlər bu fotodokı qızcığazın, onun kimi yüz minlərlə, milyonlarla uşağın üreyindən qopan sülh harayını, nəhayət eşitsinlər, necə deyərlər, güllər açılsın, güllər açılmasın... Bir də biz uşaq olanda məktəbdə belə bir nəğmə oxuyardıq:

**Sülhə gəlin, ey insanlar**
**Yoxsa, dünya məhv olar...**

*Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"*



## Dünyaya səs salan şahzadə toyu

**Bu günlərdə İordaniyanın paytaxtı Ammanda bütün dünyaya səs salan təmtəraqlı toy mərasimi keçirilib. Belə ki, İordaniya Kralı II Abdullah ibn Al Hüseynin oğlu vəliəhd şahzadə Hüseyn evlənib.**

İordaniya taxt-tacının varisinin seçimi əslən Səudiyyə Ərəbistanından olan 28 yaşlı Rayva ibn Səid adlı qızdır. İxtisasca memardır. Nyu-York və Los-Ancelesdə təhsil alıb. Rayvanın atası ABŞ-da böyük bir tikinti şirkətinin sahibidir. Toy Ammanda Zəhran sarayında keçirilən mərasimdə baş tutub. Paytaxt sakinləri bütün günü şənlənibər, mahnı oxuyaraq rəqs ediblər.

Məclisdə dünyanın müxtəlif ölkələrindən olan kral ailələrinin üzvləri, o cümlədən Britaniya kral ailəsinin nümayəndələri: Şahzadə Uilyam, Keyt Middlton və şahzadə Beatris iştirak ediblər.

*"Xalq qəzeti"*

## Hindistan da "iPhone" istehsal edəcək

**"Apple" şirkətinin ən böyük tədarükçüsü "Foxconn" gələn ilin aprel ayına qədər Hindistanın cənubundakı Karnataka əyalətində "iPhone" istehsalına başlayacaq. Bu barədə Hindistanın əyalət hökuməti məlumat verib.**



Karnataka hökumətinin layihənin 1,59 milyard dollar dəyərində qiymətləndirildiyini bildirib. "Foxconn" Karnatakadakı zavodda ildə 20 milyon "iPhone" istehsal etməyi qarşısına məqsəd qoyub.

"Foxconn"un "Apple"-in telefonlarını Hindistanda istehsal etmək qərarı son vaxtlar Vaşinqton ilə Pekin arasında ticarət gərginliyinin artması ilə ələqədardır.

Qeyd edək ki, Apple telefonlarının çoxu hazırda Çində istehsal edilir. Hindistanda isə bu telefonların hissələri "Apple"-in törəmə qurumları tərəfindən yığılır.

*F.SALMANOVA, "Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Kartof məlhəm imiş...

**Mütəxəssislərin söylədiklərinə görə, xalq təbabətində kartofdan geniş istifadə edilir. Çünki kartof vitamin və mineral anbarıdır. Tərkibində, həmçinin dəriyə müsbət təsir göstərən antioksidantlar var.**



Təbabətdə bağırsaqların işini normallaşdırmaq üçün acqarına, gündə yarım stəkan kartof suyu içilir. Ancaq özünü müalicə etmək qərarına gəlməzdən əvvəl mütləq həkimlə məsləhətləşmək lazımdır.

Kartofdan üz maskalarını isə mütəxəssis məsləhəti olmadan etmək olar. Dəriyə pasta şəklində tətbiq olunan xam kartof onu nəmləndirməyə və toksinləri çıxarmağa kömək edir.

Bundan əlavə, kartof suyundan yanıqları müalicə etmək üçün də istifadə edilir. Bu, yanıqların sağalmasını sürətləndirir.

Mütəxəssislərin fikrincə, təzə kartof şirəsi mədə yaralarını, qastriti də sağaldır.

*Z.BAYRAM, "Xalq qəzeti"*

*Proqnoz*



## Dağətəyi rayonlara dolu düşəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyunun 4-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 17-22°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 20-25° isti olacaq.

*Q.QASIMOV, "Xalq qəzeti"*

## Böyük İsgəndər bəstəboy olubmu?!

**Makedoniyalı İsgəndər və ya Böyük Aleksandr (e.ə 356-323-cü illər) dünyanın ən dahi sərkərdələrdən biri sayılır. Lakin qədim mənbələrə görə, o, fiziki baxımdan o qədər də cazibədar olmayıb. Bəstəboy və cüssəsiz sərkərdə içki aludəçisi olub, onun cır səslə danışdığı, cığal və ədalətsiz olduğu da deyilir.**



Yaşa dolduqca İsgəndər səksəkəli və divanə bir adama çevrilib. Bununla belə, qısa ömrünün 20-ci ilindən başlanan onillikdə İsgəndər Misirdən Hindistanadək böyük bir imperiya qura bilib. O heç bir döyüşdə məğlub olmayıb, müharibə taktikasını təkmilləşdirib və Misirdəki İsəndəriyyə də daxil olmaqla 20 şəhər salıb.

Bəlkə, sərkərdənin böyük hərbi uğurlarını, fəthlərlə dolu ömrünü nəzərə alaraq, ona "Böyük İsgəndər!" deyiblər.

*P.ƏFƏNDİYEV, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00